

# SÜRƏTSEVƏRLƏRİN GÖZÜ BAKIDA

Dünya sürətsevərlərinin gözü bir daha Bakıya dikilib. Şəhərimiz artıq doqquzuncu dəfə "Formula 1" üzrə Azərbaycan Qran-prisinə ev sahibliyi edir. Bakı küçələrinin unikal ab-havası, dar döngələrin yaratdığı gərginlik bu yarışı mövsümün ən maraqlı mərhələlərindən birinə çevirir.

Bakı Şəhər Halqası "Formula 1" təqviminin ən çətin və ən unikal şəhər traslarından biri kimi Monako ilə yanaşı, xüsusi yer tutur. Bu möhtəşəm marşrut həm yüksək sürətli uzun düzlüyü, həm də dar və iti döngələri ilə pilotlardan maksimum texniki ustalıq, dəmir iradə tələb edir.

SƏHİFƏ 8-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

20 SENTYABR ŞƏNBƏ 2025 № 36 (4237) Qiyməti - 60 qəpik www.kaspi.az



## ŞUŞA DİPLOMATİK-SİYASİ MƏRKƏZƏ ÇEVRİLİR

Ali Baş Komandan İlham Əliyevin 2020-ci il 8 noyabr tarixində Şuşanın işğaldan azad edilməsi müjdəsini xalqa çatdırarkən ən səmimi hisslərlə söylədiyi "Əziz Şuşa, biz səni dirçəldəcəyik" bəyanatı bu gün artıq reallıqdır.

SƏHİFƏ 6-da



## AZƏRBAYCAN KÖRFƏZDƏ, BƏƏ QAFQAZDA

Sentyabrın 16-da Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Azərbaycana rəsmi səfərə gəldi. Azərbaycan Prezidenti İlham Əliyev həmkarını Füzuli Beynəlxalq Hava Limanında qarşıladı.

SƏHİFƏ 4-də

BAYRAĞIMIZ RESPUBLİKANIN BÜTÜN ƏRAZİLƏRİNDƏ VÜQARLA DALĞALANIR

# HƏDƏFLƏRƏ ÇATDIĞIMIZ GÜN

Dövlət Suverenliyi Günü qalib, güclü, müasir Azərbaycanın tarixində yeni siyasi rəmzdir. Bu əlamətdar tarixə gedən yol, əldə edilən hərbi-siyasi nailiyyətlər məhz Prezident İlham Əliyevin və qəhrəman xalqımızın sarsılmaz qətiyyətinin nəticəsidir.



### CƏMİ 23 SAAT DAVAM EDƏN ƏMƏLİYYAT

2023-cü il sentyabrın 19-da Ordumuz antiterror əməliyyatına başlayıb. Cəmi 23 saat davam edən və sentyabrın 20-də başa çatan əməliyyat nəticəsində Xankəndidəki qondarma rejim özünü buraxıb, Ermənistan ordusunun 15 minlik kontingenti tamamilə iflic vəziyyətinə düşüb.

### 20 SENTYABR DÖVLƏT SUVERENLİYİ GÜNÜDÜR

Azərbaycan beynəlxalq birlik tərəfindən tanınmış bütün əraziləri üzərində suverenliyini təmin edib. 30 illik işğaldan sonra Azərbaycanın bütün ərazilərində hakimiyyətin aliliyi və nəzarət funksiyası tam şəkildə bərpa olunub. Keçən ildən 20 sentyabr tarixi Azərbaycanda Dövlət Suverenliyi Günü kimi qeyd olunur.

SƏHİFƏ 5-də



## "KARTDAN-KARTA" DÖVRÜ GERİ QAYIDIR?

Son zamanlar ölkəmizdə nağdsız ödənişlərin təşviqi istiqamətində atılan addımlara baxmayaraq, bəzi ticarət obyektlərində POS-terminalların ya işləməməsi, ya da bilərəkdən istifadə edilməməsi halları yenidən aktuallaşıb.

SƏHİFƏ 11-də



## YENİTİKİLİLƏRİN HƏLLİNİ TAPMAYAN PROBLEMİ

Ali Məhkəmənin son qərarı yenitikililərdə "komendant pulu" məsələsini yenidən gündəmə gətirib. Ekspertlər bu məsələdə fərqli düşünürlər. Bəzisi MTK-ların, digərləri isə sakinlərin məsuliyyətsizliyini önə çəkir.

SƏHİFƏ 14-də



## ƏNDƏLÜSÜN ƏN GÖZƏL QADINLARININ ŞƏHƏRİ

Kordoba tez-tez "ən isti" və "ən ucuz qiymətli" şəhər adı uğrunda yarışır. Əndəlüsün mərkəzində yerləşən bu tarixi şəhər Roma, ərəb və Avropa mədəniyyətlərinin heyrətamiz qarışığıdır. Kordobanı ziyarət etməyin üç səbəbi var...

SƏHİFƏ 15-də



## "ESTADİO DA LUZ"DA TARİXİ QƏLƏBƏ

"Qarabağ" Çempionlar Liqasının liqa mərhələsində ilk qələbəsini qazanıb. Özü də ağdamlılar bu nəticəyə səfərdə "Benfika" qarşısında oyunun əvvəlində 0:2 hesabı ilə geri düşdükdən sonra imza atıblar.

SƏHİFƏ 16-da



Hər bir dövlət üçün müqəddəs olan anlayış

SƏHİFƏ 2-də



Erməni lobbisinin daha bir məğlubiyyəti

SƏHİFƏ 2-də



Moldova tarixinin ən kritik seçkisi

SƏHİFƏ 7-də



"Ağ qızıl"ın qara günləri

SƏHİFƏ 13-də



Süni mayalanmanın bahalı sınağı

SƏHİFƏ 12-də



## Azərbaycan və Aİ işçi qrup yaradacaq

"Azərbaycan və Avropa İttifaqı (Aİ) yüksək səviyyəli iqtisadi işçi qrupu yaradacaqlar". "Report" xəbər verir ki, bu barədə Aİ-nin genişlənmə məsələləri üzrə komissarı Marta Kos iqtisadiyyat naziri Mikayıl Cabbarovla görüşünün nəticələrinə dair "X" sosial şəbəkəsindəki hesabında paylaşım edib.

"Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovla aktiv müzakirə apardıq. Regionda (Cənubi Qafqazda - red.) sülh bazarlar, ticarət və investisiyalar üçün imkanlar açır. Bunlardan yararlanmaq üçün Yüksək Səviyyəli İqtisadi İşçi Qrupu yaratmağı razılaşdırdıq. Biz tərəfdaşlığımızı gücləndirməyə davam edəcəyik", - M.Kos yazıb.



## Erməni lobbisinin daha bir məğlubiyyəti

ABŞ Nümayəndələr Palatasının Xarici İşlər Komitəsi Dövlət Departamentinin yenidən səlahiyyətləndirilməsi prosesi çərçivəsində nəzərdən keçirilən qanun layihələrinə iki düzəlişi rədd edib. "Report" xəbər verir ki, hər iki layihə açıq şəkildə anti-Azərbaycan xarakterli idi və uzun müddətdir, erməni lobbisinin təsiri altındakı Kaliforniyadan olan demokrat konqresmen Bred Şerman tərəfindən hazırlanmışdı.

Birinci düzəliş ABŞ-nin Beynəlxalq İnkişaf Maliyyələşdirmə Korporasiyasına Azərbaycandakı layihələrə hər hansı dəstək verməyi qadağan etməyi, ikinci düzəliş isə ABŞ Prezidentinin Azadlığa Dəstək Aktına 907 saylı düzəlişin təsirini dayandırmaq səlahiyyətlərinin ləğv olunmasını təklif edirdi ki, bu da Azərbaycana ABŞ yardımının göstərilməsini qadağan edir.

Hər iki düzəlişin rədd edilməsi ABŞ Prezidenti Donald Trampın Ermənistan və Azərbaycan arasında sülh təşəbbüsünə qarşı çıxan erməni lobbisinin Konqresdə daha bir məğlubiyyətini nümayiş etdirir.

# HƏR BİR DÖVLƏT ÜÇÜN MÜQƏDDƏS OLAN ANLAYIŞ



"Konstitusiya və Suverenlik İli" çərçivəsində Dövlət Suverenliyi Günü ilə bağlı keçirilən konfransda Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, parlamentin komitə sədrləri, sədr müavinləri, Milli Məclis Aparatının nümayəndələri iştirak ediblər.

Milli Məclisdə "Konstitusiya və Suverenlik İli" çərçivəsində Dövlət Suverenliyi Günü ilə bağlı konfrans keçirilib. Milli Məclis sədrinin müavini Ziyafət Əsgərovun sədrliyi ilə keçirilən konfransda Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, parlamentin komitə və komissiya sədrləri, sədr müavinləri, Milli Məclis Aparatının nümayəndələri, həmçinin aidiyyəti qurumların rəhbər şəxsləri iştirak ediblər.

### "SEPARATİZMİN TABUTU"NA SON MİSMAR VURULDU

Ziyafət Əsgərov bildirib ki, 1991-1993-cü illərdə konstitusiyanı qəbul etmək mümkün deyildi, çünki ölkədə xaos hökm sürürdü. O xatırladıb ki, 1995-ci ilin mayında Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə Konstitusiya Komissiyası formalaşdırıldı:

"1995-ci ilin 12 noyabrında ilk milli konstitusiyamız yaradıldı. Bundan sonra 2002, 2008 və 2016-cı illərdə referendumlar keçirildi. Sənəddə vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi, məhkəmə islahatları üstünlük təşkil edirdi. Sözsüz, bu referendumların keçirilməsi vacib idi".

Sədr müavini bildirib ki, 2023-cü ildəki antiterror tədbirlərindən sonra Azərbaycan suverenlik məsələsini həll etdi və Prezident İlham Əliyevin də dediyi kimi, "separatizmin tabutu"na son mismar vuruldu: "Suverenlik hər bir dövlət və xalq üçün müqəddəs anlayışdır".


Ziyafət Əsgərov

### İSTƏNİLƏN XALQIN ƏN BÖYÜK ARZUSU

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev qeyd edib ki, suverenlik istənilən xalqın ən böyük arzusu və niyyətidir: "Azərbaycanın konstitusiyası olmayan zamanda ölkə SSRİ-dən qalma qanunlarla idarə edilirdi. Ona görə də konstitusiyanın hazırlanması və qəbulu vacib idi. Heydər Əliyev o zaman da qeyd etmişdi ki, bu sənəd uzunmüddətli olmalı, insan hüquq və azadlıqlarına dair bütün vacib məqamları özündə əks etdirməlidir".

### XALQ VƏ HAKİMİYYƏT ARASINDAKI RAZILAŞMA

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, konstitusiya xalq və hakimiyyət arasındakı razılaşmadır. Onun sözlərinə görə, son illərdə Azərbaycan dövləti və xalqı suverenlik təntənəsi yaşayıb: "Azərbaycanın suverenliyi tamamilə təmin edilib. Biz bugünkü sabitlik və konstitusiyamızın inkişafı ilə qürur duya bilərik".

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev çıxışı zamanı vurğulayıb ki, konstitusiyamız dövrün tələblərinə cavab verir. Onun sözlərinə görə, bu sənəddə həm də dövlətin siyasi fəlsəfəsi ifadə olunur: "Sənədin qəbul edilməsindən 30 il keçib, bu illər ərzində dünya düzəni dəyişib, müxtəlif texnoloji və hüquqi çağırışlar meydana çıxıb. Buna baxmayaraq, Azərbaycan Konstitusiyası öz əsas məğzi etibarilə dövrün tələblərinə cavab verə bilir. Təbii ki, müasir çağırışlara uyğun olaraq bəzi əlavə hüquqi aktların və normativ sənədlərin qəbulunun mümkünlüyü də nəzərə alınır və bu istiqamətdə işlər aparılır".

### YARIMÇIQ SUVERENLİKDƏN TAM SİYASİ KİMLİYƏ

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc isə deyib ki, Azərbaycan yarımçıq suverenlikdən tam siyasi kimliyə keçir. Onun sözlərinə görə, Zəfərdən sonra konstitusiyada yazılan "Azərbaycan vahid və bölünməz dövlətdir" fikri kağızdan çox, torpaqda təsdiqlənib.

Z.Oruc bildirib ki, Azərbaycanın yeni milli ideologiyası bu gün üç sütun üzərində qurula bilər: "Birincisi, suveren düşüncədir. Bu, təkcə sərhədlərinə deyil, uğur hekayələrinə, siyasi gündəliyinə özü nəzarət edən, yalnız torpaqlar üzərində yox, düşüncə, ideya və informasiya məkanında da qazanılan müstəqillikdir. İkincisi, hər bir vətəndaş konstitusiyada öz hüququnu görməlidir. Üçüncü sütunda isə gələcək nəsillər üçün modern, güclü, hüquqa əsaslanan, texnologiyaya və ədalətə söykənən bir dövlət qurmaq dayanır. Bölgədə sülhün inşası suverenliyin təminatçısı olacaq".

# İLHAM ƏLİYEV ARZULARI REALLIĞA ÇEVİRİR

Tarixi qələbəmizdən keçən beş ilə yaxın müddətdə Şərqi Zəngəzur və Yuxarı Qarabağ iqtisadi rayonları tikinti meydanına dönüb. Prezident İlham Əliyev mütəmadi olaraq işğaldan azad edilmiş ərazilərə səfərlər edir, görülən işlərlə yerində tanış olur.





**AZAD ƏLİYEV**
azad.eliyev@kaspi.az

Şərqi Zəngəzur və Yuxarı Qarabağ iqtisadi rayonlarının işğaldan azad edilmiş ərazilərinin bərpası, məskunlaşma prosesi uğurla davam edir. Tarixi qələbəmizdən keçən beş ilə yaxın müddətdə sözügedən ərazilərdə görülən işlərin miqyasının həqiqətən dünyada analoqunun olmadığını söyləyə bilərik. Qısa müddət ərzində daxili imkanlar və Azərbaycanın özünün gücü hesabına həyata keçirilən meqalayihələr ölkəmizin qüdrətinin göstəricisidir. Qələbəmiz kimi, bu işlərin də memarı Prezident İlham Əliyevdir. Dövlət başçısı mütəmadi olaraq işğaldan azad edilmiş ərazilərə səfərlər edir, görülən işlərlə yerində tanış olur.

### PRİORİTET VƏTƏNDAŞ MƏMNUNLUĞUDUR

Dövlət başçısının Xocalı, Xankəndi və Hadruta budəfəki səfərləri, yeni yaşayış məntəqələrinə köçən sakinlərlə görüşləri, fərdi evlərdə yaradılan şəraitlə yaxından maraqlanması xüsusi qeyd olunmalıdır. Bu səfərlər zamanı müşahidə olunan məqamlar ondan xəbər verir ki, dövlət siyasətinin, Prezident İlham Əliyevin fəaliyyətinin əsasında Azərbaycan vətəndaşının məmnunluğu, rifahı dayanır. Bu vurğu sentyabrın 15-də Xocalı rayonunun Badara kəndində Badara, Daşbulaq, Seyidbəyli və Şuşakənd kəndlərinin sakinləri ilə görüşü zamanı Prezident İlham Əliyevin özü tərəfindən də qeyd olunub. "Bütün Qarabağ, bütün Şərqi Zəngəzur tikinti meydançasıdır. Qısa müddət ərzində bu gözəl evlərin bərpası, tikintisi, bütün infrastrukturun yaradılması bizim gücümüzü, niyyətimizi göstərir. Əsas odur ki, bütün siyasi addımlarımızın mərkəzində Azərbaycan vətəndaşı dayanır. Siz - Azərbaycan vətəndaşları, erməni işğalından əziyyət çəkən Qarabağ bölgəsinin sakinləri bu gün ən gözəl şəraitə layiqsiniz", - dövlət başçısı deyib.



### GÖRÜLƏN İŞLƏRİN CANLI ŞAHİDLƏRİ

Bəli, bu gün 30 ildən artıq müddətdə qaçqın və məcburi köçkün həyatı yaşamış minlərlə Azərbaycan vətəndaşı doğma torpaqlarda dövlətin onlar üçün yaratdığı şəraitin, rifahın canlı şahidi olur. Azərbaycan Prezidentinin uzaqgörən siyasətinin işğaldan azad edilmiş ərazilərimizə gətirdiyi sülhün ölkənin inkişafında hansı əhəmiyyətə malik olduğunu müşahidə edirlər. Prezident İlham Əliyevin Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə görüşündə qeyd etdiyi kimi, biz beş il ərzində şəhərlər, kəndlər, körpülər, tunellər, su anbarları, elektrik stansiyaları qurmuşuq: "Yəni, burada - Qarabağda və Zəngəzurda gedən quruculuq dünyanın heç bir yerində yoxdur. Əsas odur ki, Azərbaycan xalqı rahat yaşasın, xoşbəxt yaşasın, sülh içində yaşasın".

## Ən incə məqamlar belə diqqətə alınır



Görülən işlərin miqyasının böyüklüyünə, əhatə dairəsinə baxmayaraq, ən kiçik detallar da dövlət başçısının xüsusi nəzarətindədir. Prezident İlham Əliyevin kənd sakinlərinin fərdi evlərinə baş çəkərkən onlarla səmimi söhbətində, yaradılan şəraitlə yerində tanış olarkən verdiyi tapşırıqlarda dəfələrlə bunun əyani şahidi olmuşuq. Bu dəfə də istisna olmadı. Prezident sentyabrın 15-də Daşbulaq kəndində Məzahir Novruzovun evində olub, ailə üzvləri ilə söhbət edib. Kənd sakinin ailə üzvləri yaradılan şəraitə görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər. Söhbət əsnasında M.Novruzov kəndin digər hissəsində işğaldan əvvəlki ata evini də dövlət başçısına göstərib. Prezident İlham Əliyev ata ocağının da M.Novruzovun ailəsinə verilməsi barədə tapşırıq verib.

Prezident İlham Əliyevin Xocalı rayonunun Şuşakənd kəndinin sakini Zaur Rzayevin evinə baş çəkməsi, yaradılan şəraitlə tanışlıq zamanı verdiyi tapşırıqlar da diqqət çəkib. Dövlət başçısı həyətyanı sahələrlə bərabər, buraya qayıdan sakinlərin məşğulluğunun təmini üçün onlara əlavə torpaq sahələri və örüş yerlərinin ayrılması barədə də tapşırıqlar verib. Bütün bu məqamlar göstərir ki, Prezident İlham Əliyevin şəxsən nəzarət etdiyi işğaldan azad edilmiş ərazilərin bərpası, Böyük Qayıdış prosesi zamanı ən incə məqamlar belə diqqətə alınır.

## Xankəndi gələcəkdə tələbə şəhəri olacaq

Azərbaycan Prezidentinin işğaldan azad edilmiş ərazilərə budəfəki səfəri həm də yeni tədris ilinin başlanğıcına təsadüf etdi. Bu il onlarla kənd və qəsəbədə işğaldan azad ediləndən sonra ilk məktəb zəngi səsləndi. Budəfəki tədris ili Xankəndidə fəaliyyətə başlamış Qarabağ Universiteti üçün isə xüsusilə əlamətdar olub. Tələbələr, müəllim heyəti həm Prezident İlham Əliyevlə görüşmək imkanı qazandılar, həm də dövlət başçısının iştirakı ilə Qarabağ Universitetinin Klinikasının binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışı reallaşdı. Xankəndidə möhtəşəm ali təhsil ocağının yaradılması vaxtilə separatizm yuvası olmuş bu şəhərin gələcəkdə tələbə şəhəri olacağına işarə idi. Dövlət başçısı da bu məqamı xüsusi olaraq qeyd edir. Eyni zamanda, Qarabağ Universitetində ölkəmiz üçün mühüm əhəmiyyət daşıyan sahələr üzrə kadrların hazırlanması işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən qayıdış və bərpa prosesinin də mühüm tərkib hissəsidir. Bu ərazilərin gələcək sosial-iqtisadi inkişafı məhz peşəkar kadr hazırlığından ciddi şəkildə asılıdır.

Beləliklə, Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara mütəmadi xarakter alan səfərləri bu ərazilərin bərpasına kompleks yanaşmanın göstəricisidir. Yaradılan şəraitin ən yüksək səviyyədə olması, məşğulluğun təmini, infrastrukturun müasir standartlar səviyyəsində qurulması, bu işlərin görülməsi və gələcək sosial-iqtisadi inkişaf üçün peşəkar kadr hazırlığı və s. kimi hədəflər dünyaya yeni bir Azərbaycan modelini təqdim edir. Qurub-yaradan, sülhü hədəfləyən, güclü, müstəqil Azərbaycan modelini.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# AZƏRBAYCAN KÖRFƏZDƏ, BƏƏ QAFQAZDA

BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Füzuli və Şuşaya səfərlə ölkəsinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını diqqət mərkəzində saxladığını nümayiş etdirir. Bu ərazilərdə aparılan yenidənqurma işləri həm Azərbaycan, həm də BƏƏ üçün strateji əhəmiyyət daşıyır.



**AQŞİN KƏRİMOV**




Sentyabrın 16-da Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Azərbaycana rəsmi səfərə gəldi. Azərbaycan Prezidenti İlham Əliyev həmkarını Füzuli Beynəlxalq Hava Limanında qarşıladı. Şuşada isə Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın rəsmi qarşılanma mərasimi oldu. Bu, BƏƏ-nin Azərbaycanla olan strateji münasibətlərini işğaldan azad edilmiş ərazilər üzərindən xüsusi yanaşma ilə əks etdirdiyini göstərir.

### FÜZULİ VƏ ŞUŞADAN STRATEJİ YANAŞMA

BƏƏ Prezidenti Füzuli və Şuşaya səfərin timsalında ölkəsinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını diqqət mərkəzində saxladığını nümayiş etdirir. Çünki bu ərazilərdəki yenidənqurma işləri, sosial-iqtisadi inkişafın təmin edilməsi həm Azərbaycan, həm də BƏƏ üçün strateji əhəmiyyət daşıyır. Eyni zamanda BƏƏ Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə olan dəstəyini strateji istiqamətlərlə zənginləşdirən trayektoriyada olduğunu dünyaya nümayiş etdirir.

Azərbaycan BƏƏ üçün strateji investisiya indeksində etibarlı tərəfdaşdır. Prezident İlham Əliyev həmkarı ilə geniş tərkibdəki görüşdə deyib: "Birləşmiş Ərəb Əmirliklərinin şirkətləri burada bizim strateji tərəfdaşlarımızdır, əsas investordur və Azərbaycanda istifadəyə verilmiş birinci Günəş Elektrik Stansiyasının tikintisi və investisiyaları ölkənizin bizə dəstəyi nəticəsində mümkün olub".

Şeyx Məhəmməd bin Zayed Al Nəhyan çıxış edərkən bildirib: "Biz Birləşmiş Ərəb Əmirliklərində bu əməkdaşlığı genişləndirməyə davam etməkdə maraqlıyıq, ələlxüsus da inkişaf sektoruna aid olan iqtisadiyyat və bərpaolunan enerji, qida təhlükəsizliyi, həmçinin mədəniyyət sahələrində və əlbəttə ki, digər əhəmiyyətli sahələrdə. Çünki bu sahələr bizim gələcəyimiz üçün çox böyük nəticələr vəd edir".

## Birgə Bəyannaməni necə oxumaq olar?



Göründüyü kimi, Azərbaycana, o cümlədən azad edilmiş ərazilərə böyük sərmayə yatırmaq, bərpa, quruculuq prosesinə dəstək vermək BƏƏ-nin xarici siyasət prioritetlərində ağırlıq qazanır. Ona görə ki, BƏƏ bununla həm də daha geniş regional mövqelənməyi hədəfləyir.

Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın səfəri zamanı Azərbaycanla BƏƏ arasında Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanıb. İlham Əliyev deyib: "İmzalanmış çoxsaylı sənədlər bizim əlaqələrimizi yeni səviyyəyə qaldıracaq. İmzalanmış hər bir sənəd böyük əhəmiyyət daşıyır. Onların arasında xüsusilə Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannaməni qeyd etmək istərdim. Bu, bizim siyasi əlaqələrimizi ən yüksək zirvəyə qaldıran bir sənəddir".

BƏƏ lideri isə bildirib: "Bəyannamə hər iki tərəfin qarşılıqlı münasibətlərini daha da inkişaf etdirmək və yüksək səviyyəyə qaldırmaq iradəsini əks etdirir".

Göründüyü kimi, sənəd Azərbaycan və BƏƏ-nin qarşılıqlı olaraq geosiyasi genişlənməsi üçün fəallıq dərəcəsini gücləndirir.

Yəni, Azərbaycan-Ermənistan münasibətlərindəki müsbət tendensiyalar, onun regional və qlobal əhəmiyyətinin fonunda BƏƏ-nin Cənubi Qafqazdakı vizyonu yenilənir. Bununla paralel olaraq, Azərbaycanın Körfəz regionunda geosiyasi konsepsiyasının formalaşmasını stimullaşdırır.

Şuşa



## Regional və qlobal reallıqlara vahid pəncərədən baxış

Strateji əlaqələr Azərbaycanla BƏƏ-nin regional və qlobal reallıqlara uyğunlaşmaya vahid pəncərədən baxmağı şərtləndirir. Uzlaşdırma mexanizmlərinin əsas ayağı, şübhəsiz ki, Azərbaycanın Zəngəzur dəhlizi ilə əlaqədar irəli sürdüyü strateji vizyon və təşəbbüslərlə əlaqəli şəkildə görünəcək. Yada salaq ki, Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyanın bu il iyulun 10-da BƏƏ-də, avqustun 8-də isə ABŞ Prezidenti Donald Tramp vasitəsilə Vaşinqtonda görüşdü. Bu, Bakı ilə İrəvan arasındakı Zəngəzur dəhlizi ilə əlaqədar əldə edilmiş Vaşinqton razılaşmasına BƏƏ vasitəsilə keçidi göstərə bilər. Bu baxımdan BƏƏ Prezidentinin Bakı-İrəvan sülh proqramı ilə bağlı verdiyi bəyanat təsadüf deyil. BƏƏ lideri bəyanatında iki xətti irəli sürüb:

- BƏƏ Azərbaycanla Ermənistan arasındakı sülh müqaviləsinin imzalanması istiqamətində əldə edilmiş nailiyyətlərin və müsbət inkişafın davam etməsini səbirsizliklə gözləyir,
- BƏƏ regionda sülhün və əmin-amanlığın bərqərar olmasına, buradakı xalqların sülh şəraitində yaşamasına hər cür dəstək verməyə hazırdır.

Bu, son bir neçə ayda BƏƏ-nin Cənubi Qafqazla əlaqədar xarici siyasət oriyentasiyasını daha çoxtərəfli yanaşmaya doğru dəyişəcəyini göstərir. BƏƏ-nin Zəngəzur dəhlizi ilə əlaqədar yanaşmalarının Vaşinqton razılaşmasına tam uyğunlaşdıraraq, koridordakı iqtisadi-ticari investisiya portfelinə sərmayələr yatırması bu sahədə diqqətçəkən addımlardan ola bilər.

İlham Əliyev isə güclü imicindən, Azərbaycanın strateji təşəbbüslərindən yararlanaraq ölkəmizə Körfəz regionunda əhəmiyyətli oyunçu statusu qazandıran strategiya həyata keçirəcək. Bu, Azərbaycanın Körfəz bölgəsində mühüm strateji ərazidə yerləşən və dünya bazarlarında önəmli söz sahiblərindən olan BƏƏ vasitəsilə regional gücünü artıran dinamikalara təkan verəcək.

# HƏDƏFLƏRƏ ÇATDIĞIMIZ GÜN

Dövlət Suverenliyi Günü qalib, güclü, müasir Azərbaycanın tarixində yeni siyasi rəmzdir. Bu əlamətdar tarixə gedən yol, əldə edilən hərbi-siyasi nailiyyətlər məhz Prezident İlham Əliyevin və qəhrəman xalqımızın sarsılmaz qətiyyətinin nəticəsidir.

F.ABASOĞLU

Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək ən böyük nailiyyətdir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməyib. Ötən əsrdə Azərbaycan xalqı iki dəfə müstəqillik əldə edib. 1918-ci ilə təsadüf edən müstəqilliyimizə ərazilərimiz üzərində suverenliyin tam təmin olunmaması son qoyub. Daha dəqiq ifadə etsək, silahlı erməni dəstələrinin o dövrdə ölkə ərazisində qırğınlar törətməsi, Milli Ordunun əsas qüvvələrinin Qarabağdakı separatçılarla mübarizəyə cəlb olunması, bolşevik Rusiyasının da bu fürsətdən istifadə edərək öz qoşunlarını şimal sərhədimizdən Bakı istiqamətinə yeritməsi 1920-ci ildə Azərbaycanın azadlığını əlindən alıb. Beləliklə də cəmi iki il müstəqil dövlət kimi dünyada tanınan Şərqin ilk Demokratik Cümhuriyyəti işğal olunub.

### YETMİŞ İL DAVAM EDƏN İŞĞAL

Yetmiş il davam edən bu işğal dövründə Azərbaycanın tarixi əraziləri SSRİ rəhbərliyinin göstərişi əsasında sovet Ermənistanına birləşdirilib. Ötən əsrin 90-cı illərində müstəqilliyini bərpa edən Azərbaycan yenidən işğal olunmaq, azadlığını itirmək təhlükəsi ilə üz-üzə qalıb. Rusiyanın və dünyadakı digər ermənipərəst, imperialist dairələrin himayəsinə sığınan Ermənistanın silahlı birləşmələri Azərbaycan ərazilərinə hücum edib. Ölkənin müharibəyə cəlb olunması ilə paralel olaraq, paytaxt Bakıda rəhbər şəxslərin vəzifə kürsüsü uğrunda mübarizəsi, səbatsız idarəetməsi, vahid komandanlığın olmaması dövləti hərbi, ictimai-siyasi, iqtisadi, sosial böhrana sürükləyib.



## XİLASKARLIQ MİSSİYASI

Belə bir çətin anda xalqımız Ümummilli Lider Heydər Əliyevə üz tutub, 1993-cü ildə onu siyasi hakimiyyətə gətirərək xalqı, dövləti, dövlətçiliyi yox olmaq təhlükəsindən qurtarıb. Dahi rəhbərin bütün səylərinə baxmayaraq, 1993-2003-cü illərdə Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini danışıqlar yolu ilə bərpa etmək, Ermənistanı işğalçılıq siyasətindən əl çəkdirmək mümkün olmayıb. Bu isə Azərbaycanı, o cümlədən vətəndaşlarımızı, təhlükəsizliyimizi daim təhdid altında saxlayıb, ölkənin daha da güclənməsinin, beynəlxalq nüfuzunun artmasının qarşısını alıb. Buna rəğmən, o illərdə dövlət səviyyəsində atılan hər bir addımın, həyata keçirilən daxili və xarici siyasətin başlıca hədəfi Qarabağ problemini dinc yolla həll etmək, ərazilərimiz üzərində tam nəzarəti və suverenliyi bərpa etmək olub.

### AZƏRBAYCANA TƏZYİQ VƏ TƏSİR GÖSTƏRMƏK PLANI

Ümummilli Liderin bu siyasi kursu 2003-2020-ci illərdə Prezident İlham Əliyev tərəfindən davam etdirilib. Lakin bu illər ərzində Ermənistan nəinki beynəlxalq hüquqa hörmətlə yanaşıb, əksinə, cəbhənin müxtəlif istiqamətlərində silahlı təxribatlar törədib, dinc sakinlərin, hərbi qulluqçuların ölümünə səbəb olub. 2020-ci ilin 27 sentyabrında Silahlı Qüvvələrimiz bütün cəbhə boyu əks-hücuma keçib. 44 günlük Vətən müharibəsində Ermənistan ordusu darmadağın edilib, 300-dən çox yaşayış məntəqəsi işğaldan azad olunub. Kapitulyasiya aktına imza atan düşmən sonradan öz qoşunlarını Ağdam, Laçın və Kəlbəcərdən də geri çəkib. Ancaq Rusiyanın sülhməramlı qismində Qarabağa yeridilən hərbçilərinə arxalanan separatçı tör-töküntüləri Ermənistan silahlı birləşmələri ilə mövcudluğunu qorumağa can atıb.

## CƏMİ 23 SAAT DAVAM EDƏN ƏMƏLİYYAT

2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlanılıb. Cəmi 23 saat davam edən və sentyabrın 20-də başa çatan əməliyyat nəticəsində Xankəndidəki qondarma rejim özünü buraxıb, Ermənistan ordusunun 15 minlik kontingenti tamamilə iflic vəziyyətinə düşüb, separatçı rejimin tör-töküntüləri çıxış yolunu təslim olmaqda görüb. Bununla da Azərbaycan beynəlxalq birlik tərəfindən tanınmış bütün əraziləri üzərində suverenliyini təmin edib, müstəqilliyinin zirvəsinə və tarixi hədəflərinə çatıb. 30 illik işğaldan sonra Azərbaycanın bütün ərazilərində hakimiyyətin aliliyi və nəzarət funksiyası tam şəkildə bərpa olunub. Prezident İlham Əliyevin 19 sentyabr 2024-cü ildə imzaladığı sərəncamla həmin gün – 20 sentyabr tarixi Azərbaycanda Dövlət Suverenliyi Günü kimi qeyd olunur.

### SUVERENLİK GÜNÜ GENİŞ QEYD EDİLİR

Bu əlamətdar tarixi ilk dəfə ötən il sentyabrın 20-də Xankəndidə Qarabağ Universitetinin müəllim və tələbə heyəti ilə birlikdə qeyd edən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, Dövlət Suverenliyi Günü bundan sonra da Azərbaycanda geniş qeyd olunacaq: “Bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində separatçıların kökü kəsildi, Azərbaycan öz dövlət suverenliyini tam təmin etdi, beynəlxalq hüquq zəfər çaldı və Azərbaycan öz gücünü bir daha göstərdi. Bu günü bizə bəxş edən qəhrəman hərbçilərimizi hər zaman böyük minnətdarlıqla yad edirik. Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsini daim qəlbimizdə saxlayırıq və saxlayacağıq”.

Dövlət Suverenliyi Günü qalib, güclü, müasir Azərbaycanın tarixində yeni siyasi rəmzdir. Bu əlamətdar tarixə gedən yol, əldə edilən hərbi-siyasi nailiyyətlər məhz Prezident İlham Əliyevin və qəhrəman xalqımızın sarsılmaz qətiyyətinin nəticəsidir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən 44 günlük Vətən müharibəsi və bir günlük antiterror əməliyyatı, əldə olunan şanlı Zəfər sayəsində bu gün bayrağımız suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə, vüqarla dalğalanır.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# ŞUŞA DİPLOMATİK-SİYASİ MƏRKƏZƏ ÇEVRİLİR

Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci il 8 noyabr tarixində Şuşanın işğaldan azad edilməsi müjdəsini xalqa çatdırarkən ən səmimi hisslərlə söylədiyi “Əziz Şuşa, biz səni dirçəldəcəyik” bəyanatı bu gün artıq reallıqdır. Dünyanın, beynəlxalq aləmin qəbul etdiyi reallıq.




AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

2020-ci ilin noyabrında işğaldan azad olunan Şuşa artıq Azərbaycanın yeni diplomatik-siyasi mərkəzinə çevrilməkdədir. Son illərdə burada çoxsaylı beynəlxalq tədbirlər, forumlar təşkil olunub, bir çox dövlət başçılarının rəsmi qarşılanma mərasimləri reallaşıb.

### XƏYALLAR REALLIĞA ÇEVRİLİR

Tarixi zəfərimizə qədər Şuşanın bu cür status əldə edəcəyini ancaq xəyal edə bilərdik. Lakin Vətən müharibəsindəki şanlı qələbəmiz bizlərə xəyal görünən bir çox məqamları reallığa çevirdi. Elə Şuşanın bu gün Azərbaycanın yeni diplomatik mərkəzi olması kimi...

Prezident İlham Əliyevin birbaşa rəhbərliyi ilə işğaldan azad edildikdən sonra Şuşanın milli və tarixi kimliyi özünə qaytarıldı. İndi Şuşa tək Azərbaycan mədəniyyətinə görkəmli şəxsiyyətlər, dahilər bəxş edən məkan kimi yox, həm də bir çox qlobal və regional problemlərin müzakirə edildiyi, rəsmi səfərlərin reallaşdığı siyasi mərkəz kimi də tanınır.

### İSVEÇRƏDƏ DAVOS, ALMANİYADA MÜNHEN, AZƏRBAYCANDA ŞUŞA

Bu gün paytaxt Bakıda xarici dövlətlərin ali rəhbər şəxslərinin rəsmi qarşılanma mərasimində tətbiq edilən bütün diplomatik protokol qaydalarına Şuşada yüksək səviyyədə tam riayət olunur. Bərpa-quruculuq işləri zamanı görülən tədbirlər nəticəsində bu gün Şuşa miqyasından və əhatə dairəsindən asılı olmayaraq, böyük beynəlxalq tədbirlərə layiqincə ev sahibliyi etmək iqtidarındadır. Biz bunu işğaldan qısa müddət sonra keçirilən tədbirlər və reallaşan səfərlərin timsalında dəfələrlə müşahidə etmişik. Türkiyədə İstanbul, İsveçrədə Davos, Almaniyada Münhen paytaxtla yanaşı, xüsusi önəm daşıdığı kimi, Azərbaycanda da Şuşa belə böyük əhəmiyyət kəsb edən bir mərkəzə çevrilib.

### REALLAŞAN SƏFƏRLƏR, BEYNƏLXALQ ƏHƏMİYYƏTLİ FORUMLAR

Qeyd edək ki, 2021-ci il iyunun 15-də qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi Şuşada reallaşıb. 2023-cü ilin avqustunda Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva da Şuşanın qonağı olublar. 2025-ci ilin iyulunda Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov mədəniyyət paytaxtımıza səfər edib. 2024-cü ilin iyulunda Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib. Bu görüşdə Prezident İlham Əliyevlə yanaşı, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Macarıstanın Baş naziri Viktor Orban, Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev iştirak ediblər.

Hər il burada Prezident İlham Əliyevin də qatıldığı bir çox dövlətlərin aparıcı beyin mərkəzləri və media orqanları təmsilçilərinin iştirakı ilə ənənəvi Şuşa forumu təşkil olunur. Dünyanı narahat edən, bölgəmizlə bağlı bir çox aktual problemlərə dair rəsmi Bakının mövqeyi ən ali səviyyədə məhz Şuşadan dünyaya çatdırılır.

## “Alınmaz qala”nın siyasi anlamı



Şuşa həm də 44 günlük Vətən müharibəsində Azərbaycan dövlətinin, xalqının, ordusunun qələbə rəmzi sayılır. Tarixən “alınmaz qala” adlandırılan Şuşanın qısa müddətdə düşmən işğalından azad edilməsi, sıldırım və keçilməz qayaların fəth olunmasının siyasi anlamı da olduqca böyükdür. Xarici dövlət başçılarının Şuşada qarşılanması, beynəlxalq tədbirlərin yeni ünvanının Şuşa olması həm də dünyaya ünvanlanan açıq siyasi və diplomatik mesajdır. Bizim qalib xalq, qalib dövlət və Prezident İlham Əliyevin 21-ci əsrin tək Müzəffər Ali Baş Komandan olmasının mesajı. Məhz Şuşadan dünyaya nümayiş etdirilən bu reallıq dostlarımız üçün qürur, Azərbaycanın güclü və müstəqil dövlət olmasını istəməyənlər üçün isə xəbərdarlıq deməkdir.

### TÜRK DÜNYASININ DÖYÜNƏN QƏLBİ

Şuşa bu gün həm də Türk Dünyasının döyünən qəlbidir. Burada təşkil olunan Türk Dövlətləri Təşkilatının zirvə görüşü üzv dövlətlər arasında əməkdaşlıqda yeni bir səhifə açdı. Azərbaycanın qələbəsinin simvolu olan Şuşa Zirvə görüşündə qəbul edilən Şuşa bəyannaməsi ilə adını türk dövlətlərinin tarixinə qızıl hərflərlə yazdırdı.

## “Əziz Şuşa, biz səni dirçəldəcəyik”

Bu cür görüşlərin, beynəlxalq tədbirlərin, rəsmi qarşılanma mərasimlərinin Şuşada reallaşması həm də Qarabağın, Şərqi Zəngəzurun qədim, əzəli və əbədi Azərbaycan torpaqları olmasının dünyaya nümayişi anlamına gəlir. Şuşaya gələn hər bir xarici qonaq bu gün Füzulidə, Laçında, Zəngilanda inşa edilən hava limanlarına enməklə yolçuluğuna başlayır. Şuşaya çatanadək həm işğal dövründə törədilən vəhşilikləri, dağıntıları, həm də buna paralel olaraq Azərbaycan dövlətinin öz gücü, imkanları hesabına qurub-yaratdığı, bərpa etdiyi, məskunlaşdırdığı Qarabağı görür, müşahidə edir. Şuşa səfəri onlara Azərbaycan kimliyini, həqiqətlərini,




reallığını aşılayır, təlqin edir.

Belə diplomatik tədbirlərin, forumların Şuşada, Xankəndidə təşkili Azərbaycan xalqına da bir çağırışdır. Dövlətimizin daxili təhlükəsizliyinin, ictimai-siyasi sabitliyin ən yüksək səviyyədə təmin olunduğunun göstəricisidir. Artıq bu torpaqlarda separatizmə, terrora, bölücülüyə yer olmadığı, Azərbaycanın bütün suveren ərazilərində qanunlarının ən yüksək səviyyədə təmin edildiyinin mesajıdır.

Bəli, Şuşa bu gün hər bir Azərbaycan vətəndaşının qürur yeridir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci il 8 noyabr tarixində Şuşanın işğaldan azad edilməsi müjdəsini xalqa çatdırarkən ən səmimi hisslərlə söylədiyi “Əziz Şuşa, biz səni dirçəldəcəyik” bəyanatı bu gün artıq reallıqdır. Dünyanın, beynəlxalq aləmin qəbul etdiyi reallıq. Tarixi qələbəmizdən keçən qısa müddətdə dirçələn Şuşa bu gün qalib dövlətin diplomatiyasının yeni mərkəzidir.

# MOLDOVA TARİXİNİN ƏN KRİTİK SEÇKİSİ

Moldovada sentyabrın 28-də keçiriləcək parlament seçkilərində ölkənin gələcək taleyi həll olunacaq. Hakimiyyətdə olan qərbpərəst qüvvələr Rusiyanın nəzarətində olan seçki blokları ilə mübarizə aparırlar.



AZƏR NURİYEV



Sentyabrın 28-i Moldovanın tarixinə ölkənin gələcəyini müəyyən edən gün kimi düşə bilər. Gələn həftənin sonu bu ölkədə kritik, bütövlükdə regionun gələcəyi üçün əhəmiyyətli parlament seçkiləri keçiriləcək. Postsovet məkanında Moldova Rusiya və Qərbin mübarizə apardığı bölgələr sırasında xüsusi seçildiyindən, bu seçkilərin nəticələri əhəmiyyət kəsb edir. Spesifikliyi də ondadır ki, Kreml uzun müddət necə deyərlər, ölkədə at oynadıb, separatçı qurum yaradıb, istədiyi şəxsi hakimiyyətə gətirib, rusiyapərəst qüvvələrə güclü və hərtərəfli dəstək göstərib. Ukraynada işğalçı müharibə ilə vəziyyət dəyişib. Məhz bu müharibə ilə moldovalılar arasında Qərbə və onun strukturlarına rəğbət artıb. Avropa İttifaqına (Aİ)üzvlüklə bağlı vədlər isə moldovalıları daha da ümidləndirib.

### KREMLİN MÜDAXİLƏ PLANLARI

Kreml də sakit dayanmır. Ənənəvi müdaxilə planlarını cızır. Söhbət hələ ki, hərbi yox, seçkilərə müdaxilədən gedir. Təhlükə o həddə çatıb ki, Avropa Parlamenti Moldovada parlament seçkiləri ərəfəsində Rusiyanın bu ölkəyə hibrid hücumlarını kəskin şəkildə pisləyən qətnamə qəbul edib və Brüsseli Moldovanın Aİ-yə daxil olması ilə bağlı dərhal danışıqlara başlamağa çağırıb. Bu hərəkətlərin ölkədə sabitliyi pozmaq, Moldovanın Aİ-yə üzvlüyü ilə bağlı suveren hüququnu pozmaq məqsədi daşıdığı qeyd olunub. Liberal qrupdan olan Avstriya parlamentinin deputatı Helmut Brandstatterin səsləndirdiyi rəqəmlər isə şok effekti doğurub. Onun sözlərinə görə, Moldovada səslərin satın alınması və parlament seçkilərinə təsir etmək üçün Rusiya 350 milyon ABŞ dolları ayırıb. Aİ-ni dərhal hərəkətə keçməyə çağıran deputat bildirib ki, qurum Moldovada müstəqil media, kibertəhlükəsizlik və vətəndaş cəmiyyətinə dəstəyi artırmalıdır. "Biz Moldovanın Aİ-yə daxil olma prosesini sürətləndirməli və aydın siqnal göndərməliyik: Avropa Moldova xalqının yanındadır", - avstriyalı siyasətçi bildirib.



İqor Dodon

Maya Sandu

Vladimir Voronin

### SAXTA HESABLARLA MÜDAXİLƏ

"The New York Times"ın məlumatına görə, Donald Trampın Ağ Evə qayıtmasından sonra dezinformasiyaya qarşı ABŞ proqramları dayandırılıb ki, bu da Kremlin işini asanlaşdırıb. İndi Moldova "TikTok", "Facebook", "Instagram" və "YouTube" seqmentində yüzlərlə saxta hesab, xəbər saytları və neyron şəbəkələr vasitəsilə yaradılmış videolar dolaşır. Buna misal olaraq Prezident Maya Sandunu gözdən salmaq üçün "OK!" jurnalının saxta brendindən istifadə edilən kampaniyanı göstərmək olar. Əgər bir il əvvəl ABŞ rəqəmsal platformalardan belə hücumlara qarşı aktiv mübarizə tələb edirdisə, bu gün bu dəstək yoxdur. Bu səbəbdən Rusiya faktiki Moldovanın informasiya məkanında dominantlıq edir. ABŞ Dövlət Departamentinin keçmiş əməkdaşı Tomas Meliya etiraf edib ki, Kremlin Moldovada dezinformasiya fəaliyyəti görünməmiş həddə çatıb.

### RAKETLƏR, DRONLAR, KİLSƏ...

"WatchDog"un məlumatına görə, son aylarda Rusiya ilə əlaqəli və sosial şəbəkələrdə sinxron işləyən 900-dən çox hesab aşkar edilib. "TikTok" ümumi auditoriyası 100 min nəfərdən çox olan 314 profildən ibarət şəbəkəni bağlayıb. Moldova polisi hər gün hakimiyyətə inamı sarsıtmaq və şəxsən Prezident Sanduya hücum etmək üçün istifadə olunan yüzlərlə yeni səhifə qeydə alır. "Deutsche Welle" nəşri bu məlumatları təsdiqləyərək, hücumların sistemli xarakterini qeyd edir. Virtual təcavüzlə yanaşı, birbaşa müdaxilə metodları da tətbiq edilir - pullu mitinqlərin təşkili, seçicilərin kütləvi şəkildə ələ alınması üçün "Taito" tətbiqindən istifadə, haker hücumları və hətta Rusiya raketlərinin və pilotsuz uçuş aparatlarının Moldova hava məkanından uçuşu. Sonuncu amil müharibə qorxusunu gücləndirmək və cəmiyyətin sosial dayanıqlığını pozmaq məqsədi daşıyır. Ekspertlər qeyd edirlər ki, Moskva təbliğat aləti kimi hətta Rus Pravoslav Kilsəsindən də istifadə edir.

### SANDU ÜÇÜN HƏLLEDİCİ AN

Seçkilər Prezident Maya Sandu və "Fəaliyyət və Həmrəylik" (PDS) partiyası üçün də həlledici xarakter daşıyır. Ona qarşı iki siyasi qüvvə çıxış edəcək – kommunistlər, sosialistlər, "Moldovanın ürəyi" və "Moldovanın gələcəyi" partiyalarından ibarət Vətənpərvər blok, həmçinin məhkəmələrdə seçkiyə qatılmaq hüququnu bərpa edən "Böyük Moldova" partiyası. Kommunistlərə artıq 30 ildən çoxdur ki, 2001-2009-cu illərdə ölkəyə rəhbərlik etmiş keçmiş Moldova prezidenti Vladimir Voronin rəhbərlik edir. Sosialistləri öz bayrağı altında 2016-2020-ci illərdə dövlət başçısı vəzifəsini tutmuş keçmiş prezident İqor Dodon birləşdirir. "Moldovanın ürəyi" isə keçmiş Qaqauz muxtariyyətinin rəhbəri İrina Vlaxın rəhbərlik etdiyi partiyadır.

Bir neçə gün əvvəl "Böyük Moldova" bütün məhkəmələrdə qalib gələrək seçki kampaniyasına qoşulub. Onun başında da sabiq prokuror – Viktoriya Furtune dayanır. O, Sandu komandasına qarşı çox sərt mövqe tutur. Sosioloji sorğuların nəticələrinə görə, Moldova parlamentinə daha iki siyasi qüvvə də daxil ola bilər - "Alternativa" bloku və "Bizim Partiya".

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# DÜNYA SÜRƏTSEVƏRLƏRİNİN GÖZÜ BAKIDA

"Formula 1" yarışının Bakıda keçirilməsi Azərbaycan üçün təkcə idman hadisəsi deyil, həm də siyasi, iqtisadi və mədəni gücün təcəssümüdür. Bakı Şəhər Halqasında hər döngə, hər sürət rekordu sadəcə yarış həyəcanı deyil, həm də Azərbaycanın qlobal səhnədə öz sözünü deməsinin simvoludur.



ƏRTURAN İSMAYIL

Dünya sürətsevərlərinin gözü bir daha Azərbaycana, doğma paytaxtımız Bakıya dikilib. Tarixi və müasirliyi özündə birləşdirən bu şəhər artıq doqquzuncu dəfə "Formula 1" üzrə Azərbaycan Qran-prisinə ev sahibliyi edir. Bakı küçələrinin unikal ab-havası, Xəzərin sahilindən qalxan küləklər və dar döngələrin yaratdığı gərginlik bu yarışı mövsümün ən maraqlı mərhələlərindən birinə çevirir.

### ÜÇ GÜNLÜK MÜBARİZƏ

Artıq "Formula 1" pilotları ilk sərbəst yürüşlərdə güclərini sınayıb, bolidlərin sürətini Bakının dar, eyni zamanda sürətli trasında yoxlayıblar. Paralel olaraq "Formula 2" üzrə sıralama turu da keçirilib və gənc pilotların mübarizəsi azarkeşlər arasında xüsusi maraq doğurub.

Bu gün həyəcan daha da artacaq - "Formula 1" üzrə sıralama turu başlayacaq. Bu mərhələdə pilotlar bazar günü keçiriləcək əsas yarışa - sentyabrın 21-də start götürəcək möhtəşəm Qran-priyə ən əlverişli mövqedən çıxış etmək uğrunda mübarizə aparacaqlar.

Bir sözlə, Azərbaycan Qran-prisi sürət, taktika və emosiyaların zirvəyə qalxdığı həftəsonu vəd edir. Bütün dünyanın diqqəti yenə də Bakı küçələrində olacaq.

### AZƏRBAYCAN QRAN-PRİSİ NİYƏ MARAQLIDIR?

Bakı Şəhər Halqası "Formula 1" təqviminin ən çətin və ən unikal şəhər traslarından biri kimi Monako ilə yanaşı, xüsusi yer tutur. Bu möhtəşəm marşrut həm yüksək sürətli uzun düzlüyü, həm də dar və iti döngələri ilə pilotlardan maksimum texniki ustalıq, dəmir iradə tələb edir. Xüsusilə İçərişəhərin qədim divarları boyunca uzanan dar keçidlər sürücülər üçün sanki bir labirintə çevrilir. Burada bir anlıq səhv qalibiyyət ümidlərini puça çıxara bilər.

Bakı trasının fərqli cazibəsi də məhz bu kontrastdan doğur: bir tərəfdən saatda 350 km-ə yaxın sürət imkanı verən nəhəng düz yol, digər tərəfdən isə millimetr dəqiqliyi tələb edən dar döngələr. Bu sintez Azərbaycan Qran-prisini mövsümün həm ən sürətli, həm də ən riskli şəhər traslarından birinə çevirir.

Məhz buna görə də Bakıda yarış hər dəfə sürprizlərlə zəngin olur. Burada favoritlərin səhvləri digər pilotlara fürsət yarada, bir anın içində bütün strategiyalar alt-üst ola bilər. Komandalar və sürücülər maksimum diqqətli olmağa, bütün bacarıqlarını səfərbər etməyə məcburdurlar. Bu da Azərbaycan Qran-prisini təkcə sürət yarışı deyil, həm də taktiki zəka və dözümlülük mübarizəsinə çevirir.

## "FORMULA 1"İN ÖLKƏMİZƏ İQTİSADİ FAYDALARI

Azərbaycan Qran-prisi ölkəmizin iqtisadiyyatı üçün olduqca böyük əhəmiyyətə malikdir. İlk dəfə Bakıda təşkil olunan Qran-pridən bu günədək, artıq doqquz yarış ərzində turist axını və dövriyyə ildən-ilə artıb. Keçənilki "Formula 1" zamanı Azərbaycana gələn turistlərin dövriyyəsi 2023-lə müqayisədə 85 faiz artıb, turist sayı 87 faiz, əməliyyatlar 77 faiz, hotel xərcləri 127 faiz, restoran xərcləri isə 141 faiz yüksəlib. Bu göstəricilər ölkə üçün böyük iqtisadi fürsət yaradır.

Azərbaycan Qran-prisi üçün bu il Bakıya 12 mindən çox turist üz tutub. Ötən il tamaşaçıların 80 faizini əcnəbilər təşkil edib, bir çoxu isə bilet almadan sadəcə yarış ab-havasını yaşamaq üçün paytaxtımıza gəliblər. Rəqəmlərə görə, azarkeşlərin yarıdan çoxu Qran-prini dostlarına tövsiyə edir, əksəriyyəti isə yaxın iki ildə yenidən gəlməyi planlaşdırır. Ötən il Azərbaycan Qran-prisini canlı izləyənlərin sayı 86 milyon nəfəri, müxtəlif platformalarda yarışla maraqlananların sayı isə 3,9 milyardı keçib. Artan maraq səbəbilə 2025-ci ildə iki yeni tribuna tikilib, bütün biletlər satılıb və ümumi tutum artıq 20 min nəfəri ötüb.

### İDMAN DA BİR SİYASƏTDİR

Yarışın Azərbaycan üçün yalnız idman deyil, həm də siyasi əhəmiyyəti son dərəcə böyükdür. Azərbaycan Qran-prisi ölkəmizin dünyada tanıdılması baxımından ideal platformadır. Hər il bu möhtəşəm yarışa dünyanın 100-dən çox ölkəsindən azarkeşlər axışır, ölkəmizin qədim mədəniyyəti, müasir siması və ən əsası, qonaqpərvər xalqımızla yaxından tanış olmaq imkanı qazanırlar. Azərbaycanın dünya siyasi arenasında qalib ölkə kimi mövqeyini möhkəmləndirməsi də bu hadisəyə xüsusi məna qatır. Artıq bir neçə ildir ki, qalib dövlətin qalib paytaxtı öz tribunasından dünyaya sülh, dostluq və inkişaf mesajları verir.

Ümumiləşdirsək, dünyaca məşhur "Formula 1" yarışının Bakıda keçirilməsi Azərbaycan üçün təkcə idman hadisəsi deyil, həm də siyasi, iqtisadi və mədəni gücün təcəssümüdür. Belə nüfuzlu tədbirin ölkəmizdə təşkili Azərbaycanın güclü iqtisadi potensialını, təşkilatçılıq bacarığını və beynəlxalq miqyasda artan nüfuzunu bir daha nümayiş etdirir. Bakı Şəhər Halqasında hər döngə, hər sürət rekordu sadəcə yarış həyəcanı deyil, həm də Azərbaycanın qlobal səhnədə öz sözünü deməsinin simvoludur.

QANUN KİMİN TƏRƏFİNDƏDİR - SAHİBKARIN, YOXSA İSTEHLAKÇININ?

# İSTEHLAKÇI ŞİKAYƏTLƏRİNDƏ CİDDİ ARTIM

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə daxil olan müraciətlərin ötən illə müqayisədə 16 faiz artması bu sahədəki problemlərin ciddiliyindən xəbər verir. Mütəxəssislər əsas səbəb kimi qanundakı boşluqları göstərirlər.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Elektronika və məişət texnikası mağazalarının birindən aldığı kondisionerin geri qaytarılmasında üzləşdiyi çətinliklə bağlı redaksiyamıza vətəndaş şikayəti daxil olub. İstehlakçı aldığı kondisioneri otağı soyutmadığı üçün üç gün sonra mağazaya qaytarmaq və ya dəyişdirmək istəsə də, məhsulu ona "bəh-bəhlə" satan ticarət obyekti şikayətə məhəl qoymayıb. Servis xidmətinə istiqamətləndirilən alıcı ustanın "kondisionerin soyutma gücü otağınızın həcmi üçün deyil" rəyini alıb. Mağaza ilə çəkişmədə satış zamanı verilən "Qızıl zəmanət" də rol oynamayıb. İstehlakçı polisə müraciət etsə də, "bu, məhkəməlik işdir" cavabını alıb. Müştəri öz hüququnu müdafiə etmək üçün məhsulun aylıq kreditini ödəməmək qərarına gəlib. Beləcə "istehlakçı-bank-şirkət" üçlüyünün arasında əsl qalmaqal yaranıb. İndi mağazanın məhsulu dəyişmək niyyəti yoxdur. Borcun üstünə də faiz gəlir. Vətəndaş problemin həlli üçün çıxış yolu axtarır.

Bu hadisənin fonunda "müştəri həmişə haqlıdır" deyimi də əhəmiyyətsiz görünür...Təəssüf ki, bu tip şikayətlər gündən-günə artmaqdadır.

İstehlakçı hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət fəaliyyəti ilə əlaqədar Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə daxil olan müraciətlərin ötən illə müqayisədə 16 faiz artması da bu faktı təsdiqləyir. Ümumilikdə bu ilin altı ayı ərzində quruma 4847 müraciət daxil olub ki, bunların böyük hissəsi qeyri-qida, eyni zamanda xidmət sahəsindəndir.

Bəzi ekspertlər bu kimi halların baş vermə səbəbini "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanunun istehlakçının tərəfində olmaması ilə əlaqələndirirlər. Bəzi təcrübələr də Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tətbiq etdiyi cərimələrin və məhkəmə çəkişmələrinin həmişə öz nəticəsini vermədiyini göstərir.

Bəs istehlakçı problemlə üzləşdikdə hansı addımları atmalıdır?



Elmir Səfərli

## AGENTLİK MAARİFLƏNDİRMƏ İŞİ APARMALIDIR

"Əgər istehlakçının şikayəti varsa, ilk növbədə şirkətə müraciət edir və şikayətinə cavab verilmirsə, sonra bu işlə birbaşa məşğul olan Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə üz tutur", - deyən iqtisadçı Elmir Səfərli hesab edir ki, digər məsələ istehlakçının nə qədər haqlı olub-olmaması ilə bağlıdır: "Əgər sahibkar satdığı məhsula vəd etdiyi keyfiyyəti vermirsə, onun qarşılığında müştəridən hansısa ödənişi alıb geri qaytarmırsa bu zaman müştəri narazı qalır. İstehlakçının Agentlikdən sonra müraciət edəcəyi instansiya məhkəmədir". İqtisadçı haqsız müraciətlərlə bağlı faktların da olduğunu bildirir: "Əgər vətəndaş haqsızdırsa və sahibkarın heç bir təqsiri yoxdursa, o zaman heç bir cərimə tətbiq edilmir və bu barədə müştəriyə məlumat verilir. Hesab edirəm ki, Agentlik vətəndaşlar arasında maarifləndirmə aparmalıdır".



## CƏRİMƏ SİSTEMİ EFFEKTİV OLMALIDIR

Vəkillər Kollegiyasının üzvü Ruslan Vəliyevin fikrincə, istehlakçı hüquqlarının qorunması üçün sanksiyalar daha işlək olmalıdır: "Sanksiyaların effektiv işləməsi, dövlət orqanlarının operativ reaksiya verməsi, müəssisələrin daha tez-tez cərimələnməsi lazımdır. Təəssüf ki, bəzən dövlət orqanları məsələyə göz yumur, hansısa səbəbdən həmin müəssisələri cərimələmirlər və bu da sonradan belə nəticələrə səbəb olur. Bu istiqamətdə icra mexanizmlərinə daha çox diqqət yetirilməlidir ki, məhkəməyə qədər sanksiyalar tətbiq olunsun. Bunlar inzibati xətanın tərkibinə düşən əməllərdir. Bu sahəni tənzimləyən dövlət orqanına daha geniş səlahiyyət verilməlidir. Belə olsa, bunun nəticəsini həm dövlət büdcəsi görəcək, həm də vətəndaşın hüququ qorunacaq". Vəkil hesab edir ki, cərimələnən müəssisələrin adları KİV tərəfindən yayılmalıdır ki, digər müəssisələr də bundan ibrət götürsünlər.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov isə "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanunun işlək olmamasından narazıdır: "Bu qanun 1991-ci ildə qəbul olunub. Qəbul edildikdən sonra qanunda edilən dəyişikliklər də istehlakçıların zərərinə olub. Biznes qurumları üçün son dərəcə rahat şərait yaradıb. Onlar da bundan istifadə edərək, istehlakçı hüquqlarını pozurlar. Ona görə də şikayətlər arta-arta gedəcək. Qanun istehlakçının hüququnu qorumalı, biznes qurumu isə qanundan çəkinməlidir".



Eyyub Hüseynov

## YALANÇI REKLAMLAR, QİYMƏT FƏRQLİLİYİ

İqtisadçı deputat Vüqar Bayramovun fikrincə, son aylar ərzində istehlakçıların müraciətlərinin artması onların arasında maarifləndirmənin güclənməsi ilə bağlıdır: "Digər tərəfdən, müraciətlər də elektronlaşıb. Bu da qısa müddətdə müraciət imkanları deməkdir və saya təsir göstərir". Millət vəkili etiraf edir ki, hələ də ictimai-iaşə, xidmət müəssisələri tərəfindən istehlakçıların hüquqlarının pozulması hallarına rast gəlinir: "Monitorinqlər göstərir ki, burada həm ödəniş vasitələrinin, plastik kartların qəbul edilməməsi, eyni zamanda yalançı reklamlar, qiymətlə menyu və ya piştaxtada olan qiymət arasında fərqin olması halları var ki, bu da istehlakçıların hüquqlarının pozulmasına gətirib çıxarır".

V.Bayramovun sözlərinə görə, istehlakçıların hüquqlarını müdafiə edən qanun uzun müddət öncə qəbul olunsa da, ötən illər ərzində sənəddə xeyli dəyişikliklər olub: "Təbii ki, yeni çağırışlara uyğun olaraq qanuna dəyişikliklərin edilməsi prioritetdir. Bu, hüquqi bazanın daha da təkmilləşdirilməsinə xidmət edəcək".



Vüqar Bayramov

**Foto:** Firudin Səlimov - Global Media Group

## Minatəmizləmə fəaliyyətinə dair

# YENİ TƏLƏBLƏR

Zərərsizləşdirilmiş partlayıcı sursatlar aşkar edildiyi təmizləmə sahəsindən təhlükəsizlik qaydalarına riayət olunmaqla müəyyən edilmiş yerlərə daşına bilər. Müvafiq razılığın alınması üçün edilən rəsmi müraciətə üç iş günü ərzində rəsmi cavab verilir.




"Minatəmizləmə fəaliyyətinə dair Tələblər" təsdiq edilib. Bu barədə Baş nazir Əli Əsədov qərar imzalayıb. Qərarda qeyd edilib ki, tələblərin əsas məqsədi Azərbaycan Respublikasının ərazisində partlayıcı sursatların yaratdığı təhlükənin aradan qaldırılmasının, eləcə də həyata keçirilən minatəmizləmə fəaliyyətinin təhlükəsiz, effektiv və əlaqələndirilmiş şəkildə təşkilinin, minatəmizləmə əməliyyatlarını icra edən heyətin və minatəmizləmə fəaliyyətlərindən faydalanan şəxslərin təhlükəsizliyinin təmin edilməsidir.

Bu tələblər Silahlı Qüvvələr tərəfindən Azərbaycan Respublikasının təhlükəsizliyinin və müdafiəsinin təmin edilməsi məqsədilə aparılan mina əleyhinə fəaliyyət istisna olmaqla, ölkə ərazisində minatəmizləmə fəaliyyətlərini həyata keçirən icraçılara şamil olunur.

### PARTLAYICI SURSAT HARADA ZƏRƏRSİZLƏŞDİRİLƏ BİLƏR?

Bildirilir ki, müqavilə əsasında minatəmizləmə fəaliyyətinə cəlb olunan fiziki və hüquqi şəxslər tərəfindən aşkar olunan partlayıcı sursatların yerində və ya digər məhvetmə yerlərində zərərsizləşdirilməsi və ya məhv edilməsi əməliyyatının aparılması yalnız Azərbaycan Minatəmizləmə Agentliyi tərəfindən icra olunur.

Sənədə əsasən, minatəmizləmə fəaliyyətinə cəlb edilmiş dövlət orqanı (qurumu) müvafiq əməliyyatların icrası üçün zəruri imkanlara malik olduğu təqdirdə, təhlükəsizlik riskləri qiymətləndirilməklə aşkar olunan partlayıcı sursatların yerində zərərsizləşdirilməsi və məhv edilməsi əməliyyatlarını icra edə bilər.

### RƏSMİ MÜRACİƏTƏ ÜÇ İŞ GÜNÜ ƏRZİNDƏ BAXILIR

Zərərsizləşdirilmiş partlayıcı sursatlar aşkar edildiyi təmizləmə sahəsindən təhlükəsizlik qaydalarına riayət olunmaqla müəyyən edilmiş yerlərə daşına bilər. Zərərsizləşdirilmiş partlayıcı sursatların təmizləmə sahəsindən çıxarılması ilə əlaqədar qərarların icrası Agentliklə əvvəlcədən razılaşdırılmaqla həyata keçirilir. Müvafiq razılığın alınması üçün edilən rəsmi müraciətə Agentlik tərəfindən 3 (üç) iş günü ərzində baxılaraq müraciət müəllifinə rəsmi cavab verilir.

### Təcili tibbi yardım avtomobili ayrılacaq

Məhvetmə işləri iş gününün sonunda və ya iş günü ərzində əməliyyatlar dayandırıldıqdan sonra aparılmalı, Agentlik, Daxili İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Fövqəladə Hallar Nazirliyi (dövlət sərhədinin mühafizəsi aparılan ərazilərdə həmçinin Dövlət Sərhəd Xidməti) ilə əvvəlcədən razılaşdırılmaqla SƏP-ə uyğun həyata keçirilməlidir.

Partlayıcı sursatların məhv edilməsi əməliyyatlarını həyata keçirən bölmələr üçün icraçının müvafiq ixtisaslı tibb işçilərinin və zəruri tibbi vasitələrlə və avadanlıqlarla, habelə morfin hidro-xlorid preparatı ilə təchiz olunmuş təcili tibbi yardım avtomobilinin ayrılması, onların ən yaxın tibb müəssisələri barədə məlumatlı olması təmin edilməli, eləcə də hər bir sahə üzrə zərərçəkənlərin təxliyəsi planı hazırlanmalıdır.



# SOCAR ilə MSC arasında saziş imzalanıb

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə dünyanın ən böyük daşıma şirkəti olan MSC (Mediterranean Shipping Company) arasında strateji əməkdaşlığa dair saziş imzalanıb.

"Report" SOCAR-a istinadən xəbər verir ki, Bakıda keçirilən imzalama mərasimində tərəflər Egey bölgəsinin ən böyük konteyner limanı olan "SOCAR Terminalı"nda birgə investisiyalar vasitəsilə Türkiyənin qlobal təchizat zəncirində mövqeyini gücləndirməyi hədəfləyirlər.

Razılaşmaya əsasən, MSC-nin törəmə şirkəti və qlobal terminal operatoru "Terminal Investment Limited" (TIL) "SOCAR Terminalı"nda səhmdar olacaq.

Əməkdaşlıq "SOCAR Terminalı"nın TIL-in geniş qlobal şəbəkəsinə inteqrasiyasını təmin edəcək. Yeni avadanlıq və texnoloji sərmayələr nəticəsində terminal mövcud gücünü artıracaq, əməliyyat səmərəliliyini yüksəldəcək, rəqəmsallaşma, dayanıqlılıq və infrastruktur inkişafı sahəsində mühüm nailiyyətlər əldə edəcək.

Egey bölgəsinin ən böyük konteyner terminalı olan "SOCAR Terminal" 700 metrlik fasiləsiz körpü, 16 metrlik dərinlik, 420 min kvadratmetr liman ərazisi və 30 min kvadratmetr arxa sahəsi ilə həm regional, həm də qlobal ticarət üçün strateji əhəmiyyət daşıyır. ULCS sinifli yeni nəsil iri gəmiləri qəbul etmək imkanına malik olan terminal eyni anda bir neçə əsas gəmini sürətli şəkildə idarə edərək gözləmə müddətlərini minimuma endirir.

# "Bakcell" MTK-da tədbir təşkil edib

İnnovasiya və sürət lideri "Bakcell" 15 sentyabr – Bilik Günü münasibətilə Heydər Əliyev adına Müasir Təhsil Kompleksində (MTK) "Növbəti nəsil: Süni intellekt və İnnovasiya" adlı tədbir təşkil edib. Tədbirin əsas məqsədi gənclərin süni intellekt və innovasiya sahəsində bilik və bacarıqlarını inkişaf etdirmək, onları gələcəyin rəqəmsal çağırışlarına hazırlamaq olub.

Görüş çərçivəsində "Bakcell" və MTK-nın rəhbərliyinin iştirakı ilə panel müzakirəsi keçirilib. Paneldə süni intellektin gündəlik həyat və iş mühitinə təsirləri, innovasiyaların gələcəyi geniş şəkildə müzakirə edilib. Tədbir zamanı süni intellekt əsaslı




robotun iştirakı iştirakçılarda böyük maraq yaradıb. "Prompt mühəndisliyi" mövzusunda keçirilən sessiyada isə iştirakçılar süni intellekt alətlərinin təqdim etdiyi imkanlarla, həmçinin bu alətlərin ölkədə və beynəlxalq miqyasda müxtəlif fəaliyyət sahələrinə təsiri ilə daha yaxından tanış olublar. Gənclər praktiki məşğələlər vasitəsilə öz ideyalarını vizuallaşdıraraq sessiyanın sonunda real təcrübə qazanıblar.

"Azərbaycanın rəqəmsal gələcəyi məhz gənclərin bacarığı və onların yaratdığı innovasiya ekosistemi üzərində qurulacaq. Bu istiqamətdə təşkil olunan tədbirlər Azərbaycanın gənclərinə biliklərini zənginləşdirmək, praktiki bacarıqlar qazanmaq və gələcəyin innovativ liderləri kimi formalaşmaq üçün imkan yaradır", – deyə "Bakcell"in baş icraçı direktoru Klaus Müller bildirib.

"Süni intellekt kimi müasir texnoloji platformaların gətirdiyi çətinliklərin öhdəsindən gəlmək üçün təhsil müəssisələri sabah yox, bu gün addım atmalıdır", – deyə MTK-nın baş icraçı direktoru Tural Abbasov bildirib.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1929
Tiraj: 2650
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# “KARTDAN-KARTA” DÖVRÜ GERİ QAYIDIR?




Nağd hesablaşma aparılan zaman vətəndaşa çek təqdim olunsa da, bir neçə saat sonra ödənişi ləğv etmək mümkündür. Geriqaytarma və ləğv kimi göstərilir. Amma POS-terminalla ödəniş etdikdə kassa çeki ləğv olunsa da, vəsait bank hesabından çıxıldığı üçün qeydiyyata alınır. Dövriyyəni gizlətmək mümkün olmur.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Son zamanlar ölkəmizdə nağdsız ödənişlərin təşviqi istiqamətində atılan addımlara baxmayaraq, bəzi ticarət obyektlərində POS-terminalların ya işləməməsi, ya da bilərəkdən istifadə edilməməsi halları yenidən aktuallaşıb. Müştərilərə “kartdan-karta köçürmə edin” təklifləri bir daha gündəmə gəlib. Halbuki, bir müddət əvvəl bu cür hallara qarşı Dövlət Vergi Xidməti (DVX) tərəfindən ciddi nəzarət tədbirləri görülmüş, qaydaları pozan obyektlər cərimələnmişdi. İndi isə sanki vəziyyət bir qədər yumşalıb və ya nəzarət zəifləyib.

### MİN MANATDAN ALTI MİN MANATADƏK CƏRİMƏ

Dövlət Vergi Xidmətindən “Kaspi”yə bildirilib ki, bu istiqamətdə tədbirlər davam etdirilir: “2025-ci ilin 8 ayında POS-terminallardan (kartdan-karta əməliyyatları daxil) istifadə ilə bağlı keçirilmiş nəzarət tədbirləri zamanı 1143 halda qanunvericiliyin tələblərinin pozulması halları aşkar olunub. POS-terminalların tətbiqindən imtina və “kartdan-karta” köçürmə hallarının qarşısının alınması məqsədilə Dövlət Vergi Xidməti nəzarət tədbirləri mütəmadi qaydada davam edir. POS-terminallar vasitəsilə həyata keçirilən ödənişlər həm şəffaflıq və təhlükəsizlik, həm də maliyyə intizamı baxımından vacibdir. Bildiririk ki, “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” və “Elektron ticarət haqqında” Qanunlara əsasən POS-terminalların quraşdırılması məcburi olan obyektlərdə POS-terminalların quraşdırılmaması və POS-terminal quraşdırılmış obyektlərdə nağdsız ödənişlərin qəbulundan imtina edilməsinə görə, vergi ödəyicisinə 1000 manatdan 6000 manatadək məbləğdə maliyyə sanksiyası tətbiq edilir”.

## Kimlər POS-terminal quraşdırmalıdır?

Qurumdan o da bildirildi ki, dövriyyəsindən və ərazisindən asılı olmayaraq, ƏDV ödəyicilərinin bütün təsərrüfat subyektləri vergi ödəyicisinin ƏDV məqsədləri üçün qeydiyyata alındığı tarixdən POS-terminaldan istifadə etməlidirlər. Həmçinin dövriyyəsindən və ərazisindən asılı olmayaraq, avtomobil və mebel satışı üzrə ixtisaslaşmış müəssisələr, idman və sağlamlıq kompleksləri, səhiyyə obyektləri, istirahət və əyləncə obyektləri, mehmanxanalar, şadlıq evləri, yanacaqdoldurma məntəqələri, hava, su, dəmiryol və avtomobil nəqliyyatı vasitələrilə sərnişindaşımada biletlərin satışını həyata keçirən satış məntəqələri və turizm şirkətləri təsərrüfat subyektinin (obyektinin) qeydiyyata alındığı tarixdən POS-terminal quraşdırmağa məcburdurlar: “Rüb üzrə orta aylıq dövriyyəsi 2000 manatdan artıq olan vergi ödəyicilərinin bütün təsərrüfat subyektləri (obyektləri), hüquqi şəxslərə və fərdi sahibkarlara məxsus minik avtomobili ilə (taksi) sərnişin daşınmasını həyata keçirən nəqliyyat vasitələri, vergilərin və göstərilən xidmətlərə (işlərə) görə dövlət rüsumlarının və haqlarının ödənişini qəbul edən dövlət orqanları POS-terminallardan istifadə etməlidirlər”.


Mahmud Abasquliyev


Anar Bayramov

### “DÖVLƏT-VƏTƏNDAŞ TƏRƏFDAŞLIĞI MÜTLƏQDİR”

İqtisadçı-ekspert Mahmud Abasquliyev bildirdi ki, hazırda ticarət müəssisələrində, əsasən də pərakəndə ticarətlə məşğul olan sahibkarların təsərrüfat subyektlərində yoxlamalar davam edir: “POS-terminalla ödənişi qəbul etməyən, müxtəlif bəhanələr gətirən sahibkarlar vergi Məcəlləsinin 58.7-ci maddəsinə əsasən təqvim ili ərzində qanun pozuntusuna əsasən birinci dəfə üçün 1000 manat, ikinci dəfə üçün 3000 manat , üçüncü və daha çox hal üçün 6000 manat dəyərində cərimə edilir”.

Ekspertin sözlərinə görə, POS-terminalda istifadə etməyən sahibkarları daha rahat aşkarlamaq üçün dövlət-vətəndaş tərəfdaşlığı mütləqdir: “Belə ki, vətəndaş qarşılaşdığı durum barəsində anında DVX-nə məlumat verməlidir. Sahibkarları da bu işə sövq etmək lazımdır”.

### “KASSA ÇEKİNİ LƏĞV EDƏ BİLİRLƏR”

Vergi qanunvericiliyi üzrə mütəxəssis Anar Bayramov da düşünür ki, bir çox sahibkarlar ticarət obyektlərində, ictimai iaşə obyektlərində, restoranlarda POS-terminalın nasaz olduğunu bildirərək ödənişi kartdan-karta ödəməklə həyata keçirməyi xahiş edirlər. Bu vergi qanunvericiliyinin tələblərinə ziddir: “Həmçinin istehlakçıların hüquqlarının qorunması haqqında Azərbaycan Respublikasının qanunun 17-ci maddəsinin tələblərini də pozur. Qanunda da qeyd olunur ki, nağdsız ödənişləri aparmaq üçün obyektlərdə vergi ödəyiciləri POS-terminal quraşdırmalıdırlar. Amma bir çox hallarda bundan yayınırlar. Səbəb də dövriyyələrinin gizlədilməsidir. Nağd hesablaşma aparılan zaman vətəndaşa çek təqdim olunsa da, bir neçə saat sonra ödənişi ləğv edə bilir. Geriqaytarma və ləğv kimi göstərir. Ayın sonunda dövriyyəsi daha az görünür. Amma POS-terminalla ödəniş etdikdə kassa çeki ləğv olunsa da, vəsait bank hesabından çıxıldığı üçün qeydiyyata alınır. Çünki vergi orqanları banklardan bu məlumatı əldə edirlər”.

A.Bayramovun sözlərinə görə, dövlət vergi xidməti bu kimi halların qarşısını almaq üçün operativ vergi nəzarəti tədbirləri həyata keçirir: “Bu kimi halların qarşısının alınması üçün həm cəza, həm də stimullaşdırıcı tədbirlər nəzərdə tutulur. Əgər nağdsız ödənişlərin həcmi çox olarsa, vergi endirimləri, güzəştlər qanunda öz əksini tapıb. Müştərilər də nağdsız ödəniş etdikdə onlara 17,5 faiz ƏDV gəlir. Amma hələ də bir çox hallarda sahibkarlar vergidən yayınırlar. Vətəndaşın hüquqdur ki, sahibkardan POS-terminal tələb etsin. Çünki “kartdan-karta” ödənişlər təhlükəlidir. Bəzən ödəniş vətəndaşın hesabından çıxır, amma texniki nasazlıq səbəbindən satıcının hesabına oturmur. Yaxud vətəndaş kart nömrəsi yazarkən işarədə səhvə yol verir, başqa hesaba pul köçürmüş olur. Amma satıcı israrla ödənişi tələb edir”.

Üç əsrin qəzeti Kaspi



SONSUZ AİLƏLƏRİN ÖVLAD SAHİBİ OLMAQ ÜÇÜN SON ÜMİDİ

# SÜNİ MAYALANMANIN BAHALI SINAĞI

**Hazırda dünyada süni mayalanma yolu ilə doğulan uşaqların sayı səkkiz milyondan çoxdur. Azərbaycana gəlincə, 2022-ci ildə açıqlanan rəsmi məlumata görə, 85 000-90 000 süni mayalanma icra olunub.**

SEVİNC ABBASOVA

Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il Azərbaycanda 392 qadın süni mayalanma yolu ilə uşaq dünyaya gətirib. Bu, 2023-cü illə müqayisədə 62 nəfər azdır. Statistikaya nəzər yetirdikdə, 2021-ci ildə 391, 2022-ci ildə isə 395 qadının hamiləliyi süni mayalanma nəticəsində uğurla yekunlaşıb.

Bu azalma tendensiyası "ölkədə süni mayalanma ilə bağlı vəziyyət necədir?" sualını gündəmə gətirir. Maraqlıdır, bu sahədə hansı problemlər var? Azalmanın səbəbi nədən ibarətdir? Qiymətlər necə dəyişir?

Dünyada süni mayalanma ilk dəfə 1978-ci ildə, Azərbaycanda isə 2004-cü ildə tətbiq edilib. Hazırda dünyada süni mayalanma yolu ilə doğulan uşaqların sayı 8 milyondan çoxdur. Azərbaycana gəlincə, 2022-ci ildə açıqlanan rəsmi məlumata görə 85 000-90 000 süni mayalanma icra olunub. Təkcə son dörd ildə ölkədə 1632 uşaq süni mayalanma nəticəsində dünyaya gəlib.

### QANUNVERİCİLİKDƏ BOŞLUQLAR VAR

Uzman mama-ginekoloq Rəşad Sultan bildirir ki, rəqəmlərdəki azalma birbaşa mənfi tendensiya kimi qəbul edilməməlidir: "Əgər ölkədə ümumilikdə evliliklərin, hamiləliklərin və doğuşların sayı azalırsa, süni mayalanma halları da təbii olaraq azalacaq. Digər tərəfdən, ola bilər ki, həkimlərimiz də təbii yolla müalicədə daha çox uğur əldə edirlər. Bu, müsbət tərəfdir. Amma mənfi tərəfi də var. Bəzən ehtiyacı olan xəstələr maddi imkanları olmadığı üçün bu proseduru həyata keçirməkdən imtina edirlər".




Mütəxəssis Azərbaycanda süni mayalanma sahəsində ən böyük problemin "Reproduktiv sağlamlıq haqqında" qanunun hələ də qəbul olunmaması olduğunu vurğulayır: "Süni mayalanma nəticəsində bir insan dünyaya gəlir, lakin bu prosesl bağlı hüquqi tənzimləmə yoxdur. Bu, həm həkimlər, həm pasiyentlər, həm də cəmiyyət üçün ciddi problemlər yarada bilir. Məsələn, donor məsələsi qanunvericiliklə tənzimlənmir. Əgər qanun qəbul olunsa, bu həm ictimai etimadı artırar, həm də gələcəkdə yarana biləcək hüquqi mübahisələrin qarşısını alar. Qanun həkimlər üçün də müdafiə mexanizmi rolunu oynayar, çünki sabah məhkəməyə şahid kimi çağırılanda qanuni çərçivəyə istinad etmək mümkün olar. Ən vacibi isə qanun mühafizəkar yanaşmaların doğurduğu yanlış fikirləri də aradan qaldırar. İnsanlar bəzən elə düşünürlər ki, süni mayalanmada mütləq başqasının spermatozoidindən və ya yumurtasından istifadə edilir. Halbuki bu, yalnız xüsusi hallarda baş verir və bütün mərhələlər həkim nəzarətindədir".

### QİYMƏTLƏR 2500-4000 MANAT ARASINDA DƏYİŞİR

Mütəxəssisin sözlərinə görə, qiymət məsələsi də ciddi problemdir. Hazırda Azərbaycanda heç bir əlavə prosedur olmadan süni mayalanmanın qiyməti, dərmanlar daxil olmaqla, 2500-4000 manat arasında dəyişir: "Əgər donor istifadə olunursa, müalicəyə əlavə olaraq 1500-2000 manat xərclənir. Daha yüksək texnoloji yanaşma tələb edən preimplantasion genetik diaqnostika tətbiq edildikdə isə bu xidmətin standart qiyməti 2000 dollardır".

Rəşad Sultan deyir ki, bu rəqəmlər bazar tərəfindən müəyyənləşdirilir və hər klinika, həkim öz qiymət siyasətini formalaşdırır: "Qiymət xəstədən-xəstəyə dəyişir. Çünki hər bir pasiyentin diaqnostika və müalicə planı fərqlidir".




## "RƏQƏMLƏRDƏKİ AZALMA REALLIĞI TAM ƏKS ETDİRMİR"

Süni mayalanma üzrə mütəxəssis, cərrah mama-ginekoloq Arzu Məmmədova hesab edir ki, rəsmi statistikalardakı azalma reallığı tam əks etdirmir. Onun sözlərinə görə, azalma daha çox xəstələrin müxtəlif həkimlər arasında yayılması ilə bağlıdır: "İndi bu sahədə fəaliyyət göstərən mərkəzlərin sayı xeyli artıb. Xəstələr artıq müxtəlif həkimlərə müraciət edirlər və onların statistikasını hər zaman aparmaq mümkün olmur". Onun sözlərinə görə, əslində son illərdə süni mayalanmaya müraciət edənlərin sayı azalmaq əvəzinə artıb: "Bəzi həkimlərin bu sahədə lisenziyası yoxdur. Bəzən adi ginekoloqlar da süni mayalanma edir, sadəcə qeydiyyat aparılmır". Həkimin fikrincə, bu sahədə əsas çətinlik maliyyə məsələsidir: "Dərmanlar ölkəmizdə istehsal olunmur və müxtəlif xarici ölkələrdən gətirilir. Son illər dərman vasitələrinin qiymətləri xeyli bahalaşıb".

### AİLƏLƏR ÜÇÜN MANEƏ YARADAN FAKTOR

Tibb elmləri doktoru, professor Adil Qeybulla da süni mayalanma yolu ilə uşaq dünyaya gətirən qadınların sayının azalmasını daha çox prosedurun bahalı olması ilə əlaqələndirir: "Süni mayalanma sığorta tərəfindən qarşılanmayan, bahalı prosedurdur və vətəndaşlar onu öz hesablarına etdirməli olurlar. Hətta mayalanma baş tutmadıqda belə xərclər geri qaytarılmır, çünki proses çoxsaylı tibbi mərhələlərdən ibarətdir və xeyli maliyyə tələb edir. Bəzən uğurlu nəticə əldə etmək üçün vətəndaşa bu əməliyyatı 2-3 dəfə etdirmək lazım gəlir. Bu isə maddi imkanları məhdud olan ailələr üçün ciddi maneəyə çevrilir".




Adil Qeybulla onu da vurğulayır ki, mövcud ekoloji faktorlar təbii mayalanma prosesinə mənfi təsir göstərir: "Əslində son illərdə hamiləliyin baş tutması və normal sona çatdırılması ilə bağlı problemlərin artması süni mayalanmaya olan ehtiyacı daha da aktuallaşdırıb. Hazırda surroqat ana proqramları və uşağın xüsusi şəraitdə bəslənməsi ilə bağlı ciddi klinik tədqiqatlar aparılır".

AZƏRBAYCANIN PAMBIQ İXRACINDAN GƏLİRİ KEÇƏN İLLƏRLƏ MÜQAYİSƏDƏ AZALIB

# "AĞ QIZIL"IN QARA GÜNLƏRİ

**Pambıq ixracından gələn gəlirlərdə azalma müşahidə edilir. Ekspertlərin fikrincə, bu, dünya bazarında pambığın ucuzlaşması ilə əlaqəlidir. Bunun qarşısını almaq üçün yeni bazarlar tapmalı və məhsulumuzun keyfiyyətini artırmalıyıq.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanın pambıq ixracından gəliri azalıb. Belə ki, bu ilin yanvar-iyul aylarında 108,1 milyon ABŞ dolları dəyərində pambıq ixrac edilib. Məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 13,9 faiz azdır. Təkcə iyulda isə Azərbaycan 9,5 milyon ABŞ dolları dəyərində pambıq ixrac edib. Bu isə bir il əvvələ nisbətən səkkiz faiz azdır. Bəs gəlirlərin azalmasına səbəb nədir? Pambıqçılıq artıq əvvəlki qədər maraq doğurmur?

### "DÜNYA BAZARLARINDA PAMBIQ UCUZLAŞIB"

Kənd təsərrüfatı eksperti Cəfər İbrahimlinin sözlərinə görə, Azərbaycanda pambıqçılıq ənənəvi olaraq inkişaf edir: "Digər sahələrlə müqayisədə bu sahəni bilən şəxslər daha çoxdur. Azərbaycanda son illərdə pambıq sahələri ilə bağlı ciddi bir dəyişiklik yoxdur. Müəyyən rayonlar var ki, orada 100 min hektara qədər ərazi əkilir. Ümumi olaraq ildə 300 min ton məhsul istehsal edilir. Əraziləri genişləndirə bilmirik. Çünki pambıq su sevən bitkidir, torpağın imkanları olmalıdır. Pambıqçılıqda istehsal məhsuldarlıq hesabına artırıla bilər. Suvarma sistemini, toxumları inkişaf etdirməklə, torpağımıza və iqlimimizə uyğun toxumlar yetişdirərək məhsuldarlığı artırmaq olar".

C.İbrahimlinin fikrincə, gəlirin azalmasının səbəbi dünyada pambığın ucuzlaşmasıdır: "Pambığın böyük hissəsini ixrac edirik. Ölkəmizdə emal olunur, mahlıc formasına gətirilir. Daha çox Türkiyəyə satılır. Keçən il pambığın qiyməti son yeddi ilin ən aşağı səviyyəsinə düşüb. Dünya bazarlarında qiymətin düşməsi də ixrac gəlirlərinə təsir edə bilər".

### "SOVET DÖVRÜNDƏKİ İSTEHSALA ÇATA BİLMİRİK"

İqtisadçı Rauf Qarayev isə pambıqçılıq üzrə rəqəmlərin dəyişkən olduğunu bildirdi: "Azərbaycanda pambıqçılıq qədim və inkişaf etmiş sahə olsa da, son illərdə istehsal həcmi dəyişkənlik göstərib. Sovet dönəmində pambıq istehsalı bir milyon ton təşkil etsə də, 2010-cu illərdə azalma müşahidə olunmuşdu. Sonrakı illərdə isə əkin sahələrinin genişlənməsi, məhsuldarlığın artması və istehsalın xeyli yüksəlməsi ilə pambıqçılığın bərpası istiqamətində işlər görülüb.

1981-ci ildə Azərbaycanda pambıq tədarükü bir milyon tona çatmışdı. 2015-ci ildə əkin sahələri azaldı və yalnız 18 min hektar əkilərək 35 min ton məhsul götürüldü. 2016-cı ildə 51 min hektar əkinlə 89 min ton, 2017-ci ildə isə 136 min hektar əkinlə 207 min ton pambıq istehsal olundu. 2019-cu ildə əkin sahələri azalsa da, məhsuldarlıq ciddi şəkildə artdı və 100 min hektar əkindən 294 min ton məhsul götürüldü. 2020-ci il 337 min ton, 2021-ci il 287 min ton, 2022-ci il 322 min ton, 2023-cü il 276 min ton istehsal olub. Göründüyü kimi, rəqəmlər gah azalır, gah da çoxalır".




### "RƏQABƏTDƏ UDUZURUQ"

R.Qarayev Azərbaycanın pambıq ixracından da bəhs etdi: "Azərbaycandan pambıq əsasən xammal kimi deyil, hazır məhsul olan iplik şəklində ixrac edilir. Pambıq iplik idxal etmək ölkənin hazır məhsul ixracına göstərilən marağını və dəyər zəncirini göstərir. Bu, Azərbaycanın kənd təsərrüfatı ixracının artırılmasına töhfə verir və ölkə iqtisadiyyatı üçün vacibdir. 2025-ci ilin ilk yeddi ayında 17 milyon dollar dəyərində 7282 ton pambıq iplik ixrac olunub. Onu da qeyd edək ki, Azərbaycan eyni zamanda bəzi ölkələrə xam pambıq - daranmaya məruz qalmayan pambıq lifi ixrac edir. Bu ilin ilk üç ayında Azərbaycan Türkiyəyə 24,8 min ton, Türkmənistana isə 1,3 min ton pambıq lifi satıb. İxrac olunan pambıq lifinin bir kiloqramının orta gömrük dəyəri 1,5 dollar (2,5 manat) olub".




## "YENİ BAZARLAR TAPILMALIDIR"

İqtisadçının sözlərinə görə, pambıq ixracındakı azalmanı aradan qaldırmaq üçün müxtəlif yollar tapmalıyıq: "Pambıq ixracındakı azalma müvəqqətidir. Pambığın ixracı ilə bağlı rəqabət üstünlüyü üçün yeni bazarlar tapmalıyıq. Türkiyə, İran, Banqladeş, Rusiyaya pambıq satmaqla böyük nəticə əldə edə bilmərik. Yeni bazarlar tapılmalıdır ki, pambıq ixracımızı artıra bilək. Türkiyə vasitəsilə Avropaya pambıq sata bilərik. Bunun üçün keyfiyyəti artırmalıyıq. Bu zaman yüngül sənayemiz də inkişaf edər. Artıq geyimlərimizi də özümüz istehsal edə bilərik. Bu isə bir sıra sahələrin inkişafına gətirib çıxarar. Təəssüf ki, istehsal etdiyimiz pambıqdan alınan məhsullar azdır. O səbəbdən rəqabətdə digər ölkələrə uduzuruq. Məsələn, pambığımızı Türkiyəyə göndərib orada məhsullar istehsal edib digər ölkələrə sata bilərik. Pambıqçılığın stimullaşdırılması üçün subsidiyalar mövcuddur. Həmçinin yeni avadanlıqlar alıb gətirmək lazımdır ki, itkiyə daha çox yol verməyək".



Rauf Qarayev



Cəfər İbrahimli

SAKİNLƏRİN BƏZİSİ XİDMƏT HAQLARINI ÖDƏMƏKDƏN İMTİNA EDİR, ONLARA TƏSİR İMKANLARI DA YOXDUR

# YENİTİKİLİLƏRİN HƏLLİNİ TAPMAYAN PROBLEMİ

Ali Məhkəmənin son qərarı yenitikililərdə komendant pulu məsələsini yenidən gündəmə gətirib. Ekspertlər bu məsələdə fərqli düşünürlər. Bəzisi MTK-ların, digərləri isə sakinlərin məsuliyyətsizliyini önə çəkir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Ali Məhkəmənin Mülki kollegiyası çoxmənzilli yaşayış binalarında liftdən istifadəyə məhdudiyyətin tətbiq olunması qaydalarına dair vahid məhkəmə təcrübəsini müəyyən edən qərar qəbul edib. Məlumata əsasən, məhkəmə mübahisəsi cavabdeh MMC ilə çoxmənzilli yaşayış binasının sakinləri arasında bağlanmış xidmət müqavilələrindən irəli gəlib. Həmin müqavilələrə görə, MMC binanın idarə olunması, istismarı və sakinlərə kommunal xidmətlərin göstərilməsi öhdəliyini üzərinə götürüb. Sakinlərdən bir neçəsi xidmət haqqını ödəməməsi səbəbilə MMC tərəfindən liftdən istifadə kartlarının deaktiv olunmasının qadağan edilməsi barədə iddia qaldırıb. Ali Məhkəmənin mübahisə ilə bağlı mövqeyi ondan ibarət olub ki, liftlər bina sakinlərinin ümumi paylı mülkiyyətində olmaqla, bina sakinlərinin ümumi yığıncağının qərarı ilə və ya tərəflər arasında bağlanmış müqavilə ilə məhdudiyyətlərə məruz qala bilər.

Beləliklə, Ali Məhkəmə liftdən istifadənin fundamental bir hüquq olduğunu təsdiqləyib və bunun yalnız kollektiv razılıq və ya müqavilə ilə məhdudlaşdırıla biləcəyini açıq şəkildə bəyan edib.

Yeni tikililərdə yığım məsələsi aktual problemlərdəndir. Sakinlərin bir qismi xidmət haqlarının ödənilməsindən yayınır, üstəlik onlara qarşı təzyiq metodları da yoxdur.

Bəs yeni tikililərin bu problemi necə həll olmalıdır?

### "İDARƏEDİCİ TƏŞKİLATLAR ÇIXILMAZ VƏZİYYƏTDƏDİR"

Əmlak eksperti Firdovsi Xəlilov bildirdi ki, bu, çox ağrılı problemlərdən biridir: "Təəssüf ki, müvafiq dövlət orqanlarının bu məsələlərin həllində nəinki maraqlı olduqları görünmür, hətta bu barədə düşünmədikləri belə hiss olunur. Gəlin, problemin miqyasını daha aydın göstərmək üçün konkret bir misalla yanaşaq. Tutaq ki, 12 mərtəbəli bir binamız var. Hər mərtəbədə bir blokda dörd mənzil yerləşir və hər biri 80 kvadratmetrdir. Bu zaman ümumilikdə 3840 kvadratmetr yaşayış sahəsi əldə edirik. Əgər kvadratmetrə görə aylıq ödəniş 40 qəpikdir və bu binada yaşayan sakinlər vaxtında ödəniş edir, bu halda ideal yığım cəmi 1536 manat təşkil edir. Binada dörd blok varsa, ən azı iki nəfər təmizlikçi çalışmalıdır. Onların maaşı və DSMF ödənişləri ilə birlikdə bu, təxminən 1000 manata yaxın edir. Üstəlik, bir komendantın maaşı da təxminən 800 manatdır. Liftlər elektrik enerjisi ilə işləyir, nasazlıqlar istisna olunmur. Binada su təzyiqli gəlməsi üçün çənlər, nasoslar istifadə olunur ki, bu da əlavə elektrik xərcləridir. Beləliklə, hətta bütün sakinlər ödəniş etsə belə, toplanan məbləğ bəzən sadəcə minimal xərcləri qarşılayır. Əksər hallarda ödənişlər ya gecikir, ya da ümumiyyətlə həyata keçirilmir. Bu isə idarəedici təşkilatları çıxılmaz vəziyyətdə qoyur".

### "CƏRİMƏLƏR TƏTBİQ EDİLMƏLİDİR"

Problemdən çıxış yoluna gəldikdə isə, əmlak eksperti bildirir ki, məbləğlərin ödənilməsi məcburi olmalı, cərimələr tətbiq edilməlidir: "Qiymətləndirmə institutlarının iştirakı ilə rəsmi mexanizm yaradılmalıdır. Məsələn, Qiymətləndiricilər Assosiasiyasının ekspertləri konkret bina üzrə blokların amortizasiya və aylıq xidmət xərclərini hesablayaraq vahid ödəniş modeli təklif edə bilərlər. Bu model Nazirlər Kabinetinin qərarı ilə təsdiqlənərsə, həmin məbləğlər rəsmi şəkildə tətbiq olunmalı və ödənilməsi məcburi olmalıdır. Burada məsələ yalnız vətəndaşların məsuliyyətsizliyində deyil, eyni zamanda idarəedicilərin də şəffaf və effektiv işləməməsindədir. Yəni necə ki, dövlət qurumlarına ödənişlər (vergi, elektrik, su, cərimə və s.) gecikdirildikdə vətəndaş dəbbə pulu və əlavə məsuliyyət daşıyır, eyni qayda bu sahəyə də şamil olunmalıdır. Ödənişdən yayınanlara qarşı hüquqi tədbir görülməsi üçün qanuni əsas yaradılmalı, idarəedicilər də öz növbəsində keyfiyyətli və şəffaf xidmətə görə məsuliyyət daşımalıdırlar. Təcrübədə sakinlərin öz aralarında qurduğu idarəetmələr də uğursuz nəticələnir. Xərclər çox yüksəkdir. Məsələn, liftin bir platasının dəyişdirilməsi üçün 1000-1500 manat tələb olunur".

### "VƏTƏNDAŞ NARAZI OLDUĞU ÜÇÜN XİDMƏT HAQQINI ÖDƏMİR"

İnşaat eksperti Elnur Azadov isə deyir ki, əksər hallarda vətəndaş narazı olduğu üçün xidmət haqqını ödəmir: "Ədalətli yanaşma ilə baxdıqda, aydın olur ki, sakinlərin xidmət haqqı ödəməməsinin səbəbləri sadəcə məsuliyyətsizlik deyil. Əksinə, bu narazılığın kökündə idarəetmədəki özbaşınalıq, xüsusilə komendant rüsumları və xidmətlərin qeyri-şəffaf təqdimatı dayanır. Ölkədə çoxmənzilli binaların böyük əksəriyyətində bu cür idarəetmə özbaşınalığı müşahidə olunur. Vətəndaşların əksəriyyəti yalnız idarəetmədən məmnun olduqları halda ödəniş edirlər. Amma xidmətlər qeyri-peşəkar şəkildə həyata keçirilirsə, xidmət haqqından imtina edirlər".




### "ƏHALİNİN BÖYÜK BİR QİSMİ BU MEXANİZMDƏN XƏBƏRSİZDİR"

Həmsöhbətimiz bildirir ki, hazırda əhalinin təxminən, 10 faizə yaxını çoxmənzilli binalarda xidmət haqları ilə bağlı ciddi problemlərlə üzləşir. O düşünür ki, problemin həll yolu maarifləndirmədən keçir: "Yaşayış komplekslərində mülkiyyətçilər tərəfindən mütləq qaydada müştərək cəmiyyətlər yaradılmalıdır. Bu cəmiyyətlər üç idarəetmə formasından birini seçməklə öz binalarını şəffaf şəkildə idarə edə bilərlər. Əhalinin böyük bir qismi bu mexanizmdən xəbərsizdir. Bəziləri elə düşünür ki, bir dəfə seçilən sədr artıq daimi və dəyişməz şəxsdir. Halbuki qanunla istənilən vaxt ümumi yığıncaq çağırmaq, sədrdən hesabat tələb etmək və ya onu dəyişdirmək mümkündür. Bu sahədə real dəyişiklik üçün texnoloji yanaşmaya ehtiyac var. Ölkədə vahid rəqəmsal platforma yaradılmalı, burada dövlət nəzarət mexanizmi tətbiq edilməlidir. Vətəndaşlar ASAN Xidmət və ya rəqəmsal imza vasitəsilə həmin platformaya daxil olaraq öz binaları ilə bağlı səsvermə hüququ əldə etməlidirlər. Bu platforma çoxmənzilli binalarda idarəedicilər və sakinlər arasında qarşılıqlı etimadı gücləndirəcək".



# ƏNDƏLÜSÜN ƏN GÖZƏL QADINLARININ ŞƏHƏRİ

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Ərəb mədəniyyəti bu gün də Kordobanın ayrılmaz tərkib hissəsidir. Hər il minlərlə turist məhz bu izləri görmək üçün Kordobaya gəlir. Kordoba məscidi - "Mesheti" şəhərin simvoludur.

Kordoba tez-tez "ən isti" və "ən ucuz qiymətli" şəhər adı uğrunda yarışır. Əndəlüsün mərkəzində yerləşən bu tarixi şəhər Roma, ərəb və Avropa mədəniyyətlərinin heyrətamiz qarışığıdır. "Kordobanı ziyarət etməyin üç səbəbi var: incəsənət, tarix və qastronomiya. Bundan əlavə, bu şəhərdəki qadınlar bütün Əndəlüsün ən gözəlləridir" deyilir.

### MÜSƏLMAN XİLAFƏTİNİN MƏRKƏZİ ŞƏHƏRİ

Vaxtilə Kordoba Avropada mövcud olan yeganə müsəlman xilafətinin mərkəzi idi. X-XI əsrlərdə Əl-Əndəlüsün çiçəklənən şəhəri dünyanın hər yerindən filosofları, astronomları, həkimləri və musiqiçiləri cəlb edir. Kordobada nəinki elm və incəsənət inkişaf edirdi, hətta üç dinin - İslam, xristianlıq və yəhudiliyin təmsilçiləri dinc şəraitdə yanaşı yaşayırdı: "Kordoba xilafəti güclü İslam dövləti idi. Avropanın ən böyük və ən inkişaf etmiş şəhərlərindən biri hesab edilirdi. Kitabxanaları, universitetləri, tibb elmi ilə məşhur idi. İslam dünyasından, eləcə də xristian Avropasından alimlər burada təhsil alırdılar. Şəhəri "elm məskəni" adlandırırdılar. Burada demək olar ki, bütün əhali, hətta qadınlar da savadlı idi", - deyə tur bələdçisi məlumat verir.

1236-cı ildə - şəhər III Ferdinandın qoşunları tərəfindən tutulandan sonra müsəlmanlar kütləvi şəkildə Kordobadan çıxarılır və iqtisadiyyat geriləməyə başlayır: "Əhali kəskin şəkildə azalırdı. Təbii fəlakətlər, aclıq və epidemiyalar şəhərin tənəzzülünə səbəb oldu. 18-ci əsrdə şəhərdə cəmi 20 min insan qalır. İqtisadiyyatın bərpası və əhalinin artımı yalnız 20-ci əsrin ilk illərində başlayır".







## Məscid-kilsə ansamblı

Ərəb mədəniyyəti bu gün də Kordobanın ayrılmaz tərkib hissəsidir. Hər il minlərlə turist məhz bu izləri görmək üçün Kordobaya gəlir. Kordoba məscidi - "Mesheti" şəhərin simvoludur. Bu binanın qeyri-adi tarixi var. 785-ci ildə tikilən məscid bütün dünyada məşhur olub. Kordoba əmirliyinin hakimi II Əbd-əl-Rəhman məscidin, onun həyətinin genişləndirilməsi və minarəsinin tikilməsi haqda göstəriş verib. Kordoba əmirliyinin süqutundan sonra - 1236-cı ildə məscidin sütunları arasında heyvan və insan təsvirləri ilə bəzədilmiş katolik kilsəsi peyda olur. Burada kilsə tikilməsi ilə bağlı ciddi mübahisə yaşanır. Şəhər əhalisi bu tikintiyə qarşı çıxır. Uzun mübahisələrdən sonra Kordoba arxiyepiskopu imperator V Çarlza müraciət edir və o, məscidin içərisində kilsə tikməyə icazə verir. Abidəyə sintez edilən kilsə minarəyə birləşdirilir. Həyətə baxan 19 qapı bağlanır, binanın daxili divarları boyunca ibadətgahlar tikilir, minarə zəng qülləsinə çevrilir. Lakin imperator Kordobaya səfər edərkən verdiyi razılığa görə peşman olur. "Siz hər yerdə tikilə biləcək bir şey tikmisiniz və dünyada bənzəri olmayan bir binanı məhv etmisiniz", - deyir. Memar R.Ruiz binanın ilkin görkəmini qoruyub saxlamağa çalışsa da, kilsənin divarları məscidin damından hündür olur. Divar və günbəzlərdə ərəbcə yazılar diqqəti çəkir. "Mesheti" bu gün də dünyanın bir çox ölkələrindən gəlmiş səyyah və turistləri cəlb edir. Məscid-kilsə kompleksinə giriş biletinin qiyməti 13 avrodur.

### 30 MİN NƏFƏRLİK SARAY ŞƏHƏR

Kordobada mütləq ziyarət ediləsi abidələrdən biri də "Mədinə-əl-Zəhra" arxeoloji kompleksidir. İspaniyanın və ümumən Avropanın ən mühüm orta əsr arxeoloji abidələrindən olan bu kompleks özündə ərəb-islam mədəniyyətini əks etdirir. Bu, 10-cu əsrdə ərəb hökmdarı tərəfindən sevimli arvadı üçün tikilmiş saray şəhəridir. Rəvayətə görə, saray o qədər böyük idi ki, 30 min nəfəri rahatlıqla qəbul edə bilirdi. Bu maddi-tarixi abidə İkinci Dünya müharibəsi illərində tamamilə dağılır və xarabalığa çevrilir. Hazırda İspaniya tarixi kompleksdə arxeoloji qazıntı işləri ilə bərabər, bərpa işləri də aparır. Bu gün Kordobaya gələn turistlər "Qala divarı", "Mersed Sarayı", "Xəlifə hamamı" "Korrida muzeyi", "Yəhudi məhəlləsi", "Roma körpüsü" və s. turistik məkanlara da səfər edirlər.



## "Ən yaxşı veranda" adı uğrunda

Kordoba festivallar şəhəridir. "Çalışın, bu şəhərə yaz aylarında gəlin. Onda Kordobanın bütün gözəlliyin daha aydın görəcəksiniz", - deyə məsləhət görürlər. Hər il may ayının əvvəlində şəhərdə "Veranda festivalı" keçirilir. Bu zaman şəhərin tarixi hissəsində bu tədbir üçün xüsusi hazırlanmış və bəzədilmiş çoxlu həyətlər turistlərin ziyarəti üçün açıq olur. Festivalda sakinlər "Ən yaxşı veranda" adı uğrunda yarışırlar. Verandalar heykəllər, divarlardakı rəngarəng qablar, antik mebellər, arxeoloji tapıntılar, çiçəklərlə bəzədilir. Festival zamanı həyətlərə giriş pulsuz olur. Bəzi ev sahibləri girişdə ianə qabı qoyurlar. Qruplar halında xüsusi qapalı həyətlərə bələdçi ilə turlar da təşkil olunur. Turlarda qiymət adambaşına 5 avrodan 20 avroya qədər dəyişir. Yeri gəlmişkən, şəhərin müxtəlif yerlərində öz verandalarına qulluq edən şəhər sakinlərinə həsr olunmuş üç heykəltəraşlıq kompozisiyası quraşdırılıb. Şəhərdə hər il keçirilən "Flamenko" festivalında isə bu sənətin klassik nümunələri təqdim olunur. Festival günlərində bütün şəhər gecələr də oyaq olur. Kordoba qonaqlarına öz ənənələrini - musiqisini, mətbəxini və tarixini təqdim etməkdən zövq duyur. Bu gözəl şəhəri ziyarət edib oradan yadigar olaraq nə isə aparmamaq mümkün deyil...



ÜÇ ƏSRİN QƏZETİ
Kaspi
İDMAN
20 SENTYABR ŞƏNBƏ 2025
www.kaspi.az



# "ESTADiO DA LUZ"DA TARiXi QƏLƏBƏ

"Qarabağ" Çempionlar Liqasının liqa mərhələsində ilk qələbəsini qazanıb. Özü də ağdamlılar bu nəticəyə səfərdə "Benfika" qarşısında oyunun əvvəlində 0:2 hesabı ilə geri düşdükdən sonra imza atıblar.

Azərbaycanın qüruru Ağdamın "Qarabağ" klubu UEFA Çempionlar Liqasında liqa mərhələsinin oyunlarına sensasiyaya imza atmaqla start verdi. Qurban Qurbanovun komandası "Benfika"nın qonağı oldu. Lissabondakı "Estadio da Luz"da keçirilən görüş "Qarabağ"ın 3:2 hesablı qələbəsi ilə yekunlaşdı. Özü də Ağdam klubu bu nəticəyə oyunun başlanğıcında 0:2 hesabı ilə geriyə düşdükdən sonra imza atdı. 90 dəqiqə cəsarətli və ağıllı oyun göstərən komanda sonunda rəqib qapısına üç qol vurmağı bacardı. Bu nəticə Çempionlar Liqasında əsas mərhələnin birinci turunun birinci oyun gününə damğa vurdu. Dünya idman mediası "Qarabağ"ın tarixi zəfərindən yazdı.

**"BÖYÜK BİR QƏLƏBƏ QAZANDIQ"**

Qələbənin memarı Qurban Qurbanov bu dəfə də oyundan sonrakı mətbuat konfransında təmkinli açıqlamalarla yadda qalıb. O, həmişə olduğu kimi, qələbəyə görə əvvəlcə futbolçulara təşəkkür edib: "Onlar yaxşı oyunla yaxşı qalibiyyət əldə etdilər. Biz məğlub da ola bilərik. Oyun başlayanda üstünlük rəqib tərəfdə idi. 0:2-dən sonra oyunu çevirmək heç də asan görünmürdü. Vurduğumuz ilk qol qələbə qazanmağımıza kömək oldu. Amma bu o demək deyil ki, "Benfika" bizdən zəif idi.




Foto: Rüfət Mikayılov/Global Photostock

## Nəticə Portuqaliyada şok effekti yaradıb

**"Benfika"nın baş məşqçisi Bruno Lage isə nəticəyə görə məyus olduqlarını bildirib: "İstədiyimiz nəticə bu deyildi. Oyuna çox yaxşı başladıq, ilk 30 dəqiqədə mükəmməl futbol oynadıq. Amma rəqibin ilk qolu bizi oyundan saldı. Bundan sonra komandaya özünü tapmaq və oyunda qalmaq çətin oldu. Buraxdığımız iki qol bizə çox baha başa gəldi. Bizim kimliyimizə - necə müdafiə olunduğumuza, sıx oynamağımıza baxanda, bu səhvlər ağır nəticə verdi. Nəticə arzuladığımız kimi olmadı, bu da uğursuz bir axşam deməkdir. Əslində belə səhvlər olmamalı idi, amma oldu". "Estadio da Luz"da qeydə alınan nəticə Portuqaliyada şok effekti yaradıb. Oyunu stadionda izləyən azarkeşlər "Qarabağ"ın qələbə qolundan sonra əllərindəki ağ dəsmallarını yellədərək komandalarına etirazlarını bildiriblər. Oyun başa çatdıqdan sonra azarkeşlər xeyli müddət stadionu tərk etməyərək baş məşqçini və futbolçuları fitə basıblar.**

**Klub rəhbərliyi də qeydə alınan nəticəni həzm edə bilməyib. Oyundan dərhal sonra Portuqaliya klubunun prezidenti Ruy Koşta baş məşqçi Bruno Lage ilə yolları ayırdıqlarını bəyan edib. Lage ilə müqaviləyə qarşılıqlı razılıq əsasında xitam verilib. "Bu gün Bruno Lage ilə "Benfika"nı tərk etməsi barədə razılığa gəldik. Mən ona klubumuz üçün etdiyi hər şeyə görə təşəkkür edirəm, amma inanırıq ki, dəyişiklik vaxtıdır" - deyə Ruy Koşta bildirib.**

**"Benfika"da baş məşqçi vəzifəsinə portuqaliyalı mütəxəssis Joze Mourinyo gətirilib. Onunla 1+1 illik müqavilə imzalanıb.**



### Reytinq cədvəlində irəliləyiş və 2.1 milyon avro bonus

**2–3**

**BENFİKA – QARABAĞ**

**Qollar:** Barreneçea, 6 (1:0); Pavlidis, 16 (2:0); Leandro Andrade, 30 (2:1); Kamilo Duran, 49 (2:2), Aleksey Kaşuk, 87 (2:3)
**Hakimlər:** Erik Lambrexts, Co De Veird və Kevin Monteni (Belçika)
**Lissabon. "Estadio da Luz"**

Təbii ki, Çempionlar Liqasının liqa mərhələsində qazanılan qələbə Azərbaycanın UEFA-nın əmsallar cədvəlindəki yerinə də müsbət təsir edib. Ölkəmiz bu cədvəldə daha bir pillə irəliləyib. Bu qələbə Azərbaycanın reytinqinə daha 0,500 əmsal əlavə edib. Nəticədə ölkəmizin əmsal ehtiyatı 21,500-ə çatıb. Azərbaycan Slovakiyanı keçərək 26-cı yerdən 25-ci pilləyə yüksəlib. Liqa mərhələsində qazanılan qələbə həm də maddi baxımdan böyük qazanc deməkdir. Bu qələbəyə görə Ağdam klubu UEFA-dan 2.1 milyon avro bonus alacaq. Xatırladaq ki, "Qarabağ" Çempionlar Liqasının əsas mərhələsində daha yeddi matç keçirəcək ki, bunlardan dördü evdə, üçü səfərdə olacaq. Komandamız növbəti turda Bakıda Tofiq Bayramov adına Respublika stadionunda Danimarka "Kopenhagen"ini qəbul edəcək.